

10 Dekabr Qələbə paradı - Xalq-İqtidar-Ordu birliyinin nümayişi!

3

# Qarabağ

müharibəsi bütün dünyaya xalqımızın gücünü və birliyini göstərdi



9

Səs

№ 224 (6424) 8 dekabr 2021-ci il. Qiymәti 40 qәpik

# Ermənistana tərs sillə!




Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın vəsatətini təmin etdi

Dekabrın 7-də Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrətin təşviqini qadağan edən müvəqqəti tədbirlərə...

8



## YAP və AK

Parti sədrlərinin müavinləri İstanbulda birgə mətbuat konfransı keçiriblər

4

## Xankəndi məsələsi həll olundu: Erməni terrorçuları Ağdərədən çıxarıldı



## “Beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasətini görməzdən gəlir”



13

## Bu futbolçunun qiyməti 150 milyon avrodur!



Beynəlxalq İdman Araşdırmaları Mərkəzi (CIES) top 5 Avropa çempionatında 23 yaşadək ən bahalı futbolçuların siyahısını dərc edib. Qol.az xəbər verir ki, siyahıya 150 milyon avro dəyərində qiymətləndirilən Dortmund "Borussiya"sının hücumçusu Erlinq Haaland, eyni dəyərə malik "Real"dan Vinisius Junior və "Mançester Siti"dən Filip...

16

SORĞU



## Nə üçün gəlinlər qayınanaları ilə yaşamaq istəmirlər?

12

“Gəlin mənim süpürgəmdir, harada qoydum orda da durmalıdır”. Ustad sənətkar Nəsibə Zeynalovanın "Qayınana"...



## Andrey Fyodorov: “Azərbaycan sübut etdi ki, vədinə əməl etməyi bacarır”

15

Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov noyabrın ortalarında Rusiya nümayəndə heyətinin...

# “Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir”

Prezident İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

**AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkəmizin Rusiya Federasiyasının ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiyi vurğulandı.**

Prezident İlham Əliyevin Həştərxana səfərləri məmnunluqla xatırlandı və bu səfərlərin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi xüsusi qeyd edildi. Söhbət zamanı ticarət dövriyyəsinin artırılması, ticarət və nəqliyyat-logistika sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi. Heydər Əliyev Fondu tərəfindən Həştərxan vilayətində uğurla həyata keçirilən layihələr yüksək qiymətləndirildi.





Görüşdə bu gün açılışı olacaq Həştərxan İşgüzar Mərkəzinin əhəmiyyəti qeyd edildi, Bakı ilə Həştərxan arasında birbaşa müntəzəm hava əlaqəsinin yaradılmasının əməkdaşlığın genişlənməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı ölkəmizin Rusiya Federasiyasının Həştərxan vilayəti ilə əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi. Sonda Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Prezident İlham Əliyev

## “TOTAL Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də ”TOTAL Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Arnaud Breuillacı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Arnaud Breuillacın fəaliyyətinin başa çatması qeyd edildi. Dövlətimizin başçısı onun ölkəmizlə TOTAL şirkəti arasında əməkdaşlığa töhfə verdiyini vurğuladı. Arnaud Breuillac fəaliyyətinə verilən qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Söhbət zamanı təxminən bir ildən sonra Abşeron yatağında hasil olunacaq birinci qazın ölkəmizdə sənayenin inkişafı və əhalinin artımı ilə bağlı qaza olan daxili tələbatın ödənilməsi, ixrac potensialının artırılması və yeni bazarlara çıxışın əldə edilməsi, Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə ölkəmizlə TOTAL şirkəti arasında əlaqələr, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# 10 Dekabr Qələbə paradı - Xalq-İqtidar-Ordu birliyinin nümayişi!

Qürur və fəxr olunacaq 10 dekabr Zəfər Paradının keçirilməsindən bir il ötür. Zəfər Paradı 30 il işğal altında olan torpaqlarımızın 44 gün ərzində Ali Baş Komandanımız, Prezident İlham Əliyevin ”Dəmir yumruq” əməliyyatı ilə Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığının, xalqımızın birliyi və həmrəliyinin Zəfər qələbsinin Azadlıq meydanında nümayişidir. Bu paradın həsrətini düz 30 il idi ki, gözləyirdik. Və sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsində 5 şəhərimizi Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad etdik, Azərbaycanın müzəffər ordusu 5 min kvadrat kilometr ərazisini isə döyüş meydanında heç bir güllə atmadan, şəhid vermədən siyasi meydandakı qələbəsilə qaytartdı. Bu böyük qələbəmizdir. 10 dekabr Zəfər Paradı müqəddəs torpağımızın həsrətinə son qoyulduğu Zəfərin dünyaya nümayiş ediləcək paradı oldu. Bu parad torpaqlarımızın işğaldan azad olunmasında hərbi texnikamızın, həmin torpaqlarda dalğalanan üç rəngli Bayraqlarımızın nümayiş olunduğu, intizarında və həsrətində olacağımız Qarabağ Azərbaycandıra! NİDA qoyulduğu Böyük qələbənin Böyük Zəfər paradıdır!

Doğrudur, Azadlıq meydanında çox paradlar keçirilib. Ancaq 10 dekabrda keçirilən Qələbə Paradı Vətən Müharibəsinində Azərbaycanın qalib olduğunu göstərməklə yanaşı regionun lider ölkəsi olduğunu təsdiq etməsidir. ”Dəmir yumruğa” çevrilən 44 günlük Vətən Müharibəsinin ZƏFƏR PARADININ keçirilməsi özü haqqında ”məğlubedilməzlik” sindromu yaradan Ermənistan silahlı qüvvələrinin qısa müddət ərzində məhz Azərbaycan Ordusu tərəfindən darmadağın edildiyinin təsdiqidir. Bundan sonra Ermənistan silahlı qüvvələrinə, dövlət olaraq Ermənistana özünü bərpa etmək üçün illər lazım olacaq.



## İlham Əliyev:

"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər Paradıdır. Bu, tarixi hadisədir"

### “HƏR KƏS GÜCÜMÜZÜ, QÜDRƏTİMİZİ, İRADƏMİZİ GÖRDÜ”

Bu gün Azərbaycan xalqı böyük sevinci yaşayır. 30 il torpaq, yurd həsrəti çəkən və ”qaçqın, köçkün” adından qurtulduğu sevincini yaşayır. 10 dekabrda keçirilənk Qələbə Paradı bir daha göstərdi ki, Güclü Lideri, Müzəffər Ordusu, rəşadətli əsgər və zabitləri, Xalq-İqtidar birliyi olan Azərbaycan ancaq və ancaq belə bir sevinc keçirməyə layiqdir! Dövlətimizin başçısı İlham Əliyevin Laçının azad edilməsi ilə bağlı xalqa müraciətində qeyd etdiyi kimi, hər kəs gücümüzü, qüdrətimizi, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. İradəmiz də, təcrübəmiz də var: ”İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!”.

Bəli, bu Qələbə eyni zamanda, göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri, hər kəs bir arzu ilə yaşayıb və bu arzu həyata keçirildi. Artıq müharibə arxada qaldı. Zəfər tarixini yazan Azərbaycan hərb tarixinə yenilik kimi daxil olan strategiya tətbiq edərək, ən müasir silahlardan istifadə etməklə, habelə az itkilər verərək qısa müddətdə düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Ermənistan ordusu yoxdur, məhv edilib. Ermənistan ordusu onilliklər ərzində yaradılırdı və onlara hərbi texnika pulsuz verilirdi. Bu məqam 44 günlük müharibə dövründə bir daha aydın özünü göstərdi.

### ZƏFƏR PARADI DÜNYAYA SÜBUT ETDİ Kİ, ÖZÜNÜN POZULMUŞ HÜQUQLARINI ÖZÜ BƏRPA ETMƏK İQTİDARINDADIR

Azərbaycan son 200 illik tarixində itirdiyi torpaqlarını qaytara bilmədiyi bir halda, Prezident, Ali Baş Komandanımız İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaq görən siyasəti, vətəninə və torpağına olan böyük məhəbbəti, Güclü Ordumuzun, igid əsgər və zabitlərimizin şücaəti ilə torpaqlarımız işğaldan azad edildi. Bu Azərbaycanın tarixi, parlaq qələbəsidir. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Və sübut etdi ki, Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşub. Siyasi meydanında işğalçı düşməni layiq olduğu yerini göstərməklə bərabər bir daha sübut etdi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və bu gün Prezidentin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edildi. Bu tarix Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Və bu gün qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Qürur duyuruq ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. O dəmir yumruq ki, düşmənin başından vurmaqla belini qırdı.

### ZƏFƏR PARADI AZƏRBAYCAN-TÜRKİYƏ, BİR MİLLƏT, İKİ DÖVLƏT

### QARDAŞLIĞIMIZIN GÖSTƏRİCİSİ OLDU

Ümummilli Lider Heydər Əliyevin ”Bir millət, iki dövlət” kəlamı siyasi, iqtisadi, mənəvi, eləcə də geostrateji mahiyyəti ilə ötən dövr ərzində öz təsdiqini tapıb. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk vaxı ilə demişdi ”Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir”. Zəfər paradı azərbaycan-türkiyə, bir millət, iki dövlət qardaşlığımızın göstəricisi oldu.

Azərbaycan Prezidenti İlham Əliyev 10 dekabrda keçirilən parada çıxışı zamanı bir daha Azərbaycan-Türkiyə qardaşlığının, birliyinin olduğunu söylədi: ”Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir. Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəfər Paradında çıxış zamanı bildirib ki, bu Zəfər Günündə sizlərlə birlikdə olmaqdan böyük məmnunluq duyuruq: ”Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır. Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır. Bu gün Azərbaycanın mili şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür”.

Bəli, bu gün Türkiyə və Azərbaycan həmişə bir olub, bundan sonra da bir olacaq. Dövlət başçımızın dediyi kimi: ”Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”.

### ZƏFƏR PARADI BÖYÜK QƏLƏBƏMİZİN NİDASIDIR

Bəli, haqq savaşımızın qalibiyyətinə həsr olunan Zəfər paradı böyük Qələbəmizin nidasıdır. Bu, Müzəffər Ali Baş Komandanımızın ”Qarabağ Azərbaycandır və nida” əminliyinin məntiqi nəticəsidir. Bu parad İkinci Qarabağ müharibəsi adını almış 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbənin nümayişidir. Dövlətimizin başçısı İlham Əliyevin 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda söylədiyi bu fikirləri xatırlatmaq istərdik: ”Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq. Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”. Nəhayət gözlənilən gün - o böyük gün gəldi. Dekabrın 10-da İkinci Vətən Müharibəsinin qələbə paradı keçirildi. Meydana Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş olunmaqla yanaşı, işğaldan azad edilmiş torpaqlarda dalğalandırdığı bayraqlarımız gətirildi. Və bu Qələbə Parad Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılacaq! Qarabağ Azərbaycandır!.

Bizə bu Qələbəni yaşadan müzəffər Ali Baş Komandanımıza, rəşadətli Azərbaycan Ordusuna, Vətən torpaqları uğrunda canlarından keçən igid oğullarımıza minnətdarıq! QƏLƏBƏ PARADIMIZ MÜBARƏK OLSUN!

***RƏFİQƏ KAMALQIZI***

# YAP və AK

## Parti sədrlərinin müavinləri İstanbulda birgə mətbuat konfransı keçiriblər

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir. YAP nümayəndə heyətinə Milli Məclisin deputatı Ramil Həsən daxildir.**

Səfər çərçivəsində dekabrın 7-də YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini Numan Kurtulmuş birgə mətbuat konfransı keçiriblər.

Qonaqları və tədbir iştirakçılarını salamlayan AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş Azərbaycan nümayəndə heyətini bir daha Türkiyədə görməkdən məmnunluq hissi duyduğunu bildirib. Ölkəmizin ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" tezisini xatırladan AK Parti Sədrinin birinci müavini deyib: "Bir millət, iki dövlət" tezisi çərçivəsində Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq illər keçdikcə daha da dərinləşib, güclənib. Azərbaycanın Qarabağı işğaldan azad etdiyi 44 günlük müharibə zamanı Türkiyənin həm dövlət, həm də millət olaraq azərbaycanlı qardaşlarımıza verdiyi dəstək və sonrakı əməkdaşlığımızla Türkiyə-Azərbaycan münasibətləri yeni müstəviyə qədəm qoyub.











Bu çərçivədə müharibədən sonrakı dövr ərzində Azərbaycanın azad edilən Qarabağ bölgəsinin abadlaşdırılması, yenidən qurulması yolunda Türkiyə bütün gücü ilə Azərbaycanın yanındadır. Həm infrastrukturun yenilənməsi, həm də oradakı kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafı üçün işlərimiz ciddi şəkildə davam edir. Xüsusilə iki ölkə liderinin imzaladığı Şuşa Bəyannaməsindən sonra ölkələrimiz arasındakı münasibətlərdə yeni dövr başladığı kimi, Qafqazda da yeni sülh perspektivi meydana gəlib. Uzun zaman davam edən işğala son qoyulması və beynəlxalq hüquqdan irəli gələrək Azərbaycanın Qarabağı işğaldan azad etmək istiqamətində keçirdiyi əməliyyat Zəfərlə nəticələndikdən sonra yeni dövrün başladığını hamımız görürük. Bu dövrün bundan sonrakı əsası Qafqazda sülhün bərqərar olmasıdır. Bunun üçün də Türkiyə, Azərbaycan, Rusiya, İran, Ermənistan və Gürcüstan bu bölgənin altı ölkəsi olaraq ortaq məsələlərini birlikdə həll etmək iradəsini ortaya qoyması Qafqazda yeni sülh dövrünün başlaması üçün vacib addımdır. Bu addımın atıla bilməsi üçün Türkiyə ilə Azərbaycan münasibətlərini sürətlə inkişaf etdirir. Bu çərçivədə hər sahədə olduğu kimi, dövlətlər və millətlər arasındakı münasibətləri daha da dərinləşdirmək istiqamətində yolumuza davam edirik. Yenə bu çərçivədə hər iki ölkənin iqtidar - Yeni Azərbaycan və Ədalət və İnkişaf partiyaları arasında çox güclü əlaqələr qurulub, bu münasibətlər iki dövlətin tək millət olaraq irəliyə doğru addımlamasında təkanverici qüvvə olacaq".

Pandemiya şərtlərinə baxmayaraq, iki iqtidar partiya arasında qarşılıqlı görüşlərin keçirildiyini, səfərlərin təşkil olunduğunu xatırladan N.Kurtulmuş bildirib: "Bundan sonrakı dövrdə ölkələrimiz arasındakı əlaqələri iki güclü siyasi partiyanın və iki güclü siyasi liderin iradəsi ilə davam etdirəcəyik. Partiyalarımızın bu nümunəvi əlaqələri iki ölkə arasında münasibətlərin təzahürüdür. Ümid edirik ki, türk dünyasındakı digər siyasi partiyaların və digər dövlətlərin iştirakı ilə əlaqələrimizi genişləndirərək yolumuza davam edəcəyik".

Çıxışı zamanı bu gün regionda və beynəlxalq miqyasda mühüm reallıqlardan birinin Azərbaycan-Türkiyə münasibətləri olduğunu vurğulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib: "Biz mütəmadi olaraq belə bir ifadə eşidirik: "Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan digər iki ölkə yoxdur". Bu, tarixi, siyasi və mənəvi həqiqətdir. Çünki bu iki dövləti bir-birinə yaxınlaşdıran və bağlayan təkcə güclü strateji tərəfdaşlıq münasibətləri deyil, eyni zamanda, dostluq və qardaşlıq əlaqələridir. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu qardaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir. Hər iki ölkənin milli maraqlarının, strateji mənafelərinin qorunması üçün bir-birinə güclü dəstək nümayiş etdirməsi isə bu baxımdan xüsusi vurğulanmalıdır".

Ən əsası, Vətən müharibəsində haqq mübarizəsi aparan Azərbaycana qardaş Türkiyənin qətiyyətli mənəvi-siyasi dəstək nümayiş etdirməsini münasibətlərimizin zirvə hadisələrindən biri kimi qiymətləndirən Tahir Budaqov vurğulayıb: "44 günlük müharibənin başladığı gündən etibarən qardaş ölkə ictimaiyyəti Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etdi, həm reallıqların dünya ictimaiyyətinə çatdırılmasında, həm də erməni yalanlarının ifşasında yüksək fəallıq nümayiş etdirdi. Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın haqq işinə prinsipial dəstəyini ifadə etməsi, digər mühüm reallıqlar Azərbaycan xalqı və dövləti tərəfindən minnətdarlıq hissi ilə çox yüksək qiymətləndirilir".

*Ardı Səh. 5*

# YAP və AK

## Parti sədrlərinin müavinləri İstanbulda birgə mətbuat konfransı keçiriblər

Əvvəli Səh. 4

"Təqdirəlayiq haldır ki, post-müharibə dövründə də dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətt üzrə inkişaf edir, iki qardaş ölkənin birgə təşəbbüsləri regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır. Xüsusilə də, bu ilin iyun ayının 15-də Azərbaycan ilə Türkiyə arasında Strateji Müttəfiqliyə dair Şuşa Bəyannaməsinin imzalanması tərəfdaşlıq münasibətlərinin yeni səviyyəyə yüksəlməsini şərtləndirib. Şuşa Bəyannaməsinin imzalanmasından sonra görülən işlər iki ölkə arasında siyasi, iqtisadi-ticari, hərbi-strateji, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafına mühüm töhfədir", - deyən YAP Sədrinin müavini xüsusi vurğulayıb ki, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında iki ölkənin hakim partiyası olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının daimi təmaslarının, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin mühüm rolu var. "Əminliklə söyləmək olar ki, partiyalarımız arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Yeri gəlmişkən, qeyd edim ki, bu ilin iyun ayında mənim rəhbərliyimlə Türkiyədə səfərdə olan YAP nümayəndə heyəti AK Partinin yüksək səviyyəli rəsmiləri ilə görüşlər keçirib, eyni zamanda, tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Protokolu imzalanıb. Əməkdaşlıq Protokolunun imzalanmasından sonra qarşılıqlı münasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib və biz ortaq hədəflərimizin reallaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətimizi ardıcıl olaraq davam etdiririk. Səfər zamanı nümayəndə heyətimizin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilməsini isə xüsusi vurğulamaq istəyirəm. Əlbəttə, bu təmaslar gələcək əməkdaşlığımız üçün güclü hüquqi, institusional baza formalaşdırıb. İyul ayında isə AK Parti Sədrinin birinci müavini Numan Kurtulmuşun başçılığı ilə geniş nümayəndə heyətinin ölkəmizə səfər etməsi, AK Partinin nümayəndə heyətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunması əməkdaşlığın inkişafına daha bir töhfə verib. Digər tərəfdən, partiyalarımızın gənclər təşkilatları arasında görüşlərin keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması münasibətlərimizə dinamizm gətirən mühüm amillərdəndir. Bunlarla yanaşı, hər iki partiyanın birgə təşkilatçılığı ilə videokonfrans formatında tədbirlərin keçirilməsi Azərbaycan ilə Türkiyənin milli maraqlarına dair məsələlərdə faydalı və əhəmiyyətli, müzakirələrin aparılması, təmasların sıxlaşdırılması və münasibətlərin inkişafı baxımından çox önəmlidir. Partiyalarımızın əməkdaşlığı çərçivəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri", "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi", həmçinin Gəncədə partiyalarımız arasında ikitərəfli











Əməkdaşlıq Protokoluna uyğun olaraq "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzularında konfransların keçirilməsi faktını bu baxımdan ayrıca diqqətə çatdırmaq istəyirəm. Bu tədbirlər bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyənin mənəvi-siyasi birliyinin güclənməsinə öz töhfəsini verib. Şübhəsiz ki, biz siyasi partiyalar kimi dövlət başçılarının qardaşlıq münasibətlərini, Azərbaycan ilə Türkiyə arasında sarsılmaz strateji müttəfiqliyi əsas və örnək götürərək əlaqələrimizi daha da gücləndirəcək, səmərəli, faydalı və məqsədyönlü birgə fəaliyyətimizi uğurla davam etdirəcəyik", - deyə T.Budaqov əlavə edib.

Tədbir sual-cavab formatda davam edib.

Jurnalistlərin suallarını cavablandıran Numan Kurtulmuş deyib: "Biz burada müharibədən sonra əldə edilən razılaşmaların yerinə yetirilməsini arzulayırıq. Bunun üçün də Ermənistanın erməni lobbilərinin göstərdiyi istiqamətdə deyil, Ermənistanda yaşayan erməni xalqının da xeyrinə olacaq şəkildə Qafqazda sülhə dəstək verməsini arzu edirik. Çünki Fransada, ABŞ-da və başqa ölkələrdəki erməni lobbilərinin havası ilə Ermənistan reallığı fərqlidir. Bu mənada bəzi imperialist ölkələrin Qafqazda qarışıqlıq yaratmaq üçün Ermənistanın xəyallarına keçmiş dövrlərdə də dəstək göstərmələrinin heç bir nəticə vermədiyini gördük. Azərbaycanın bu Zəfərindən sonra ortaya qoyulan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da Bakıya səfəri zamanı açıq şəkildə ifadə etdiyi Qafqaz bölgəsinin altı ölkəsinin problemlərin həlli üçün səmimi dialoq təməllərini inkişaf etdirməsi bütün ölkələrin xeyrinə və bölgənin gələcəyinə, sabitliyinə töhfə verəcək çox vacib bir başlanğıcdır. Azərbaycan ilə Ermənistan arasındakı fikir ayrılıqlarını bu bölgə xalqları, Azərbaycan və Ermənistan xalqları həll etməlidir. Bizim tərəfimizdən bunun səmimi və dünyada sülhü dəstəkləyən niyyət olduğunu bir daha qeyd edirəm. Tək istəyimiz yaxın bölgələrdə baş verən bütün qarşıdurmaların aradan qaldırılaraq içində olduğumuz coğrafiyanın sülh adasına çevrilməsidir. Bunun üçün altılıq təşəbbüsün çox vacib tarixi funksiya olduğunu düşünürük. Hələ başlanğıc nöqtəsindəyik. İlk mərhələdə öz seçimləri səbəbindən bu altı ölkə buna qatılmaya bilər. Amma səmimi addımlar atıldıqca mən bu altı ölkənin də şəxsi maraqları və Qafqazdakı problemlərin həlli baxımından buna dəstək verəcəyinə inanıram".

Sonra jurnalistlərin suallarına cavab verən Tahir Budaqov isə deyib: "Xarici qüvvələrin təsiri və bəzi revanşist qüvvələrin xülyalarını hələ də meydana qoyması nəticəsində sülh prosesində müəyyən ləngimələr baş verir. Lakin biz əminik ki, qısa zaman ərzində iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi və yekun olaraq sülh müqaviləsinin imzalanması qaçılmazdır. Eyni zamanda, üçtərəfli Bəyanatdan irəli gələn vəzifələrin, o cümlədən Zəngəzur dəhlizinin açılması da tarixi reallıqdır. Düşünürəm ki, bu gün buna qarşı çıxa biləcək heç bir qüvvə ola bilməz. Amma bütövlükdə götürdükdə, yəqin ki, burada iştirak edən media nümayəndələri arasında işğaldan azad edilən ərazilərdə olanlar, oradakı vəziyyəti görənlər, o bölgələrdə bu günədək ermənilərin hansı şəraitdə və nə cür yaşadığının şahidləri var. Lakin müharibədən sonrakı qısa dövr ərzində Azərbaycan tərəfindən həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı işlər, o ərazilərin qısa zamanda Azərbaycanımızın digər bölgələri kimi, iqtisadi cəhətdən güclü və əhalinin yüksək rifah şəraitində yaşaması üçün yaradılacaq şərait ermənilərin bu sahədə seçimini daha da düzgün və obyektiv etməsinə böyük töhfə olacaq".

# Tahir Budaqov:
## "YAP ilə AK Parti arasında münasibətlər yeni müstəviyə qədəm qoyub"



**Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında münasibətlər bu ildən başlayaraq yeni müstəviyə qədəm qoyub. İyun ayında Partiyamızın mənim rəhbərlik etdiyim nümayəndə heyəti Ankaraya səfər edib və o zaman ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Bu memorandum çərçivəsində iki ölkə rəhbərlərinin bir-birinə olan qardaşlıq, dostluq münasibətlərindən bəhrələnərək, onların bu münasibətini bir örnək kimi qəbul edərək iki qardaş ölkənin iqtidar partiyaları arasındakı əlaqələrin keyfiyyətcə yeni müstəviyə qaldırılması bir məqsəd kimi qarşıya qoyulub.**

Bu fikirləri Türkiyəyə səfəri zamanı AZƏRTAC-a müsahibəsində Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ifadə edib.

Ötən qısa dövr ərzində qarşılıqlı əməkdaşlıq istiqamətdə bir çox işlərin görüldüyünü bildirən YAP sədrinin müavini deyib: "Bizim səfərimizdən sonra AK Parti Sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi böyük bir nümayəndə heyətinin Bakıya səfəri oldu və heyət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildi. Həmin səfər çərçivəsində də Gəncə şəhərində çox önəmli konfransımız baş tutdu. Bundan əlavə, YAP ilə AK Parti arasında münasibətlərin daha da inkişaf etdirilməsi, partiyaların təcrübələrindən qarşılıqlı faydalanma, bəhrələnmə məsələləri ilə bağlı onlayn formatda bir sıra görüşlərimiz, konfranslarımız təşkil edilib. Eyni zamanda, hər iki partiyanın gənclər qolları arasında da çox sıx təmaslar qurulub. Fikrimcə, onların da bu formatda əməkdaşlığı bizim partiyalar arasındakı münasibətlərə yeni bir dinamika gətirib. Hazırda bizim Türkiyə səfərimiz çərçivəsində AK Partidə keçirilən görüş də bu istiqamətdə işlərin davam etdirilməsi, növbəti perspektiv planlarımızın müzakirəsinə həsr olunub. Eyni zamanda, biz birgə mətbuat konfransı keçirərək həm Türkiyə, həm də Azərbaycan ictimaiyyətinə imzalanan razılaşma protokollarının icrası ilə bağlı qısa hesabat, eləcə də gələcək əməkdaşlığımızın istiqamətləri barədə açıqlamalar verdik".



# Azərbaycanın və Türkiyənin hakim partiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi müzakirə olunub

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.**

Səfər çərçivəsində dekabrın 7-də YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini Numan Kurtulmuş arasında görüş olub. Görüş zamanı iki qardaş ölkənin hakim partiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində işlərin davamlılığı, növbəti perspektiv planlar müzakirə olunub.

# "Zəfər Paradı
## bütün dünyada çox vacib mesajlarla yadda qaldı"






"Düz bir il öncə 2020-ci ilin dekabr ayının 10-da Bakı şəhərində Azadlıq meydanında torpaqlarımızın işğaldan azad olunmasına həsr olunmuş tarixi Zəfər Paradı keçirildi. Bu zəfər paradında cənab Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qardaş Türkiyə dövlətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, habelə Türkiyə Silahlı Qüvvələrinin böyük bir heyəti iştirak edirdi. Azərbaycanın tarixi qələbəsinə həsr olunmuş Zəfər Paradı bütün dünyada bir sıra çox vacib mesajları ilə yadda qaldı. Ən böyük mesajını cənab Prezident öz nitqində söylədi ki, "Bütün dünya görür ki, Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı sarsılmazdır, əbədidir". Çünki, müharibənin başladığı ilk anlardan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkiyə dövləti Azərbaycanın tək olmadığını, Türkiyənin onun yanında olduğunu göstərdi. Azərbaycanın tarixi qələbəsinin əldə edilməsi üçün böyük siyasi və mənəvi dəstək nümayiş etdirdi. Bu ən vacib mesaj idi". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.

Onun sözlərinə görə, bundan savayı ən mühüm mesaj o idi ki, Azərbaycan dövlətinin işi haqq işidir: "Azərbaycan dövləti məqsədyönlü şəkildə bu illər ərzində öz torpaqlarını işğaldan azad etmək üçün böyük bir hazırlıq prosesi keçdi. Həm ordu quruculuğu məsələləri ilə məşğul oldu, diplomatik cəbhədə, informasiya cəbhəsində mübarizə apardı, həm də bizim haqlı olduğumuzu təsdiqdən çox mühüm uyğun sənədlərin qəbul edilməsinə nail oldu".

Deputat sözlərinə belə davam edib: "BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa parlamentinin, AŞPA-nın və digər qurumların analoji sənədlər qəbul edilməsinə nail oldu ki, bu da Azərbaycanın bu mübarizədə hüquqlu mövqelərini gücləndirən sənədlər idi". "Atılan bütün bu addımlar nəticəsində tarixi zəfərin əldə edilməsi üçün münbit şəraitin təmin etdiyi və ən başlıcası Azərbaycanın yenilməz ordusu formalaşdı, Azərbaycan xalqının Prezidentinin bu ordunun arxasında olması bizim tarixi qələbəmizi şərtləndirdi".

"Cənab Prezident söylədi ki, bizim növbəti vəzifəmiz işğaldan azad edilmiş torpaqlarımızın bərpası və yenidən qurulması ilə bağlı məsələlərdir. Bu istiqamətdə də çox ciddi planlarımız var və onlar uğurla həyata keçiriləcək. Beləliklə, cənab Prezidentin bu çıxışında da söylədiyi kimi biz müharibədə qalib gəldik, növbəti vəzifəmiz sülh prosesində qalib gəlməkdən ibarətdir".

*Ayşən Vəli*

# XİN: "Ermənistan Azərbaycanın iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində addımlarına qarşılıq vermir"

**Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikası Prezidentinin ölkənin Quba rayonunda sakinlərlə görüşü zamanı səsləndirdiyi fikirlərin imzalanmış üçtərəfli bəyanatlara guya uyğun olmaması və Ermənistanın ərazi bütövlüyünə təhdid təşkil etməsi iddiası Ermənistan tərəfinin öz öhdəliklərini yerinə yetirməkdən boyun qaçırdığını gizlətmək, öz əhalisində əsassız fobiyalar yaratmaq və beynəlxalq ictimaiyyətin diqqətini bu məsələdən yayındırmaq cəhdidir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin 2021-ci il 7 dekabr tarixli açıqlamasına dair şərhində yer alıb.

Qeyd olunub ki, Azərbaycan tərəfi dəfələrlə və ən yüksək səviyyədə üç ölkənin liderlərinin imzaladıqları birgə bəyanatların icrasının vacibliyini vurğulayıb, tərəfimizdən bu istiqamətdə konkret addımlar atılıb. Ermənistan isə üzərindən bir ildən çox vaxt keçməsinə baxmayaraq, müxtəlif bəhanələrlə öhdəliklərini yerinə yetirmir, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına əngəl törədir. Azərbaycanın Qarabağ bölgəsinə əsassız iddialarından hələ də əl çəkməyən, revanşizm sergiləyən Ermənistan Azərbaycanın iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində addımlarına qarşılıq vermir.



Azərbaycanın ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan və beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymayan Ermənistan XİN-nə indi saxta əsaslarla beynəlxalq ictimaiyyətə üz tutmaqdansa, öz ölkələrinin liderinin imzaladığı bəyanatları diqqətlə oxumağı və bu sənədlərlə üzərilərinə götürdükləri öhdəliklərin icrasına keçməyi tövsiyə edirik.

# “Azərbaycan və Ukraynanı ortaq keçmişdən daha çox uğurlu və keyfiyyətli gələcək birləşdirir”

## YAP ilə "Xalqın Xidmətçisi" partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb











> Azərbaycan və Ukrayna bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Bu da bizim əsl dost olmağımızdan xəbər verir

**Kiyevdə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Ukrayna Ali Radasının spikeri Ruslan Stefançukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Ali Radada keçirilən görüşdə Ukrayna tərəfindən spikerin birinci müavini Aleksandr Kornienko, hakim ”Xalqın Xidmətçisi” partiyasının sədri, deputat Yelena Şulyak, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux, həmsədrin müavini Lyudmila Marçenko iştirak ediblər.

Qonaqları salamlayan Ruslan Stefançuk bildirib ki, Azərbaycan və Ukraynanı ortaq keçmişdən daha çox uğurlu və keyfiyyətli gələcək birləşdirir. Azərbaycanın ərazi bütövlüyü problemini həll etdiyini deyən Ali Radanın sədri Ukraynanın da ərazi bütövlüyü məsələsinin həllinə nail olmaq istədiyini vurğulayıb. Qeyd edib ki, Ukrayna bu sahədə Azərbaycanla fikir mübadiləsi aparmaq, Azərbaycanı Qələbəyə aparan təcrübədən faydalanmaq istəyir.

”Azərbaycan və Ukrayna bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Bu da bizim əsl dost olmağımızdan xəbər verir. Əlaqələrimizin təkcə parlamentlərarası deyil, həm də partiyalararası inkişafı önəmlidir. İqtisadi, siyasi və rəqəmsal sahələrdə birgə layihələr həyata keçirmək olar”, - deyə Ruslan Stefançuk əlavə edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib ki, iki ölkə arasında isti dostluq münasibətləri tarixən mövcud olub.

Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin qarşı tərəfə salamlarını çatdıran Tahir Budaqov bildirib: ”Prezidentimizin Ukraynaya çox isti münasibəti var. Ukraynada güclü Azərbaycan diasporu mövcuddur. Azərbaycan-Ukrayna əlaqələrinin inkişafında diasporun da öz xidməti var. İki ölkə arasında əlaqələrin inkişafı potensialı böyükdür. Əminəm ki, bu istiqamətdə birlikdə hərəkət edəcəyik. Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev və Vladimir Zelenski demokratik prinsiplərə, ölkələrimizin, xalqlarımızın milli maraqlarına əsaslanan münasibətləri inkişaf etdirirlər. Partiyalarımız arasında əlaqələr nə qədər sıx olsa, bütün sahələrin inkişafına öz töhfəsini verər”.

Sonra çıxış edən Aleksandr Kornienko, Yelena Şulyak, Valeriy Kolyux, YAP-ın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Veteranlar Şurasının sədr müavini Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Milli Məclisin deputatı Ramil Həsən iki ölkə arasında əməkdaşlığın inkişafından danışıblar.

Daha sonra YAP və ”Xalqın Xidmətçisi” partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov və ”Xalqın Xidmətçisi” partiyasının sədri Yelena Şulyak imzalayıblar.

Qeyd edək ki, görüşdə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli və Azərbaycanın Ukraynadakı səfirliyinin müşaviri Kamal Xəlilov, Ukrayna Azərbaycanlıları Radasının həmsədri, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadov da iştirak ediblər.

# Ermənistana TƏRS SİLLƏ:

## Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın vəsatətini təmin etdi!

**Dekabrın 7-də Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrətin təşviqini qadağan edən müvəqqəti tədbirlərə dair Azərbaycanın vəsatətini təmin edib.**




Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, Məhkəmə əsaslı olaraq Ermənistan tərəfinə azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməyi tapşırıb. Bu qərar 2021-ci il oktyabrın 14-dən 19-dək olan Məhkəmə dinləmələrindən sonra verilib.

Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistana qarşı verdiyi bu qərarını alqışlayır və Ermənistanı Məhkəmənin qərarını dərhal yerinə yetirməyə çağırır. "Məhkəmənin Ermənistan tərəfindən tələb edilən müvəqqəti tədbirlər ilə bağlı qərarına gəldikdə, vurğulamaq istərdik ki, Ermənistan tərəfindən qaldırılan saxlanılan erməni əsilli şəxslərin dərhal azadlığa buraxılmasına, habelə Bakıdakı Qənimətlər Parkının dərhal bağlanmasına dair vəsatətlər Məhkəmə tərəfindən rədd edilib.

Azərbaycan Məhkəmənin irqi ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı qeyd etdiyi tədbirlərə əməl edəcək. Azərbaycan beynəlxalq konvensiyalarla üzərinə götürdüyü öhdəliklərə sadiqdir. Azərbaycan beynəlxalq hüquq çərçivəsində bütün vətəndaşlarının hüquqlarını qorumağa və Ermənistanın beynəlxalq hüquq pozuntularına görə cavabdehlik daşımasını tələb etməyə davam edəcək", - deyə Azərbaycan XİN-in açıqlamasında qeyd olunur.

## "Azərbaycan və Ukraynanın hakim partiyaları arasında imzalanan memorandum münasibətlərin inkişafına töhfə verəcək"



Azərbaycan və Ukraynanın hakim partiyaları arasında əməkdaşlıq memorandumunun imzalanması iki ölkə münasibətlərinin inkişafına töhfə verəcək.

Bunu Ukraynada səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AZƏRTAC-a müsahibəsində söyləyib.

Tahir Budaqov bildirib ki, Azərbaycanla Ukrayna çoxillik dostluq münasibətlərinə malikdir, dövlətlərimiz bir-birinin ərazi bütövlüyünü daim dəstəkləyib.

"Azərbaycan-Ukrayna münasibətlərinin yaranmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olub. Hazırda isə Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev və Vladimir Zelenskinin münasibətləri hər iki ölkənin milli maraqlarına əsaslanır. Dövlətlər arasında əməkdaşlıq strateji tərəfdaşlıq prinsipləri çərçivəsində inkişaf edir. Sözsüz ki, hakim Yeni Azərbaycan Partiyası ilə Ukraynanın "Xalqın Xidmətçisi" Partiyası arasında əlaqələrin qurulması ümumilikdə dövlətlərimiz, xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına öz töhfəsini verəcək", - deyə YAP Sədrinin müavini əlavə edib.

Tahir Budaqov bildirib ki, imzalanan memorandum qarşılıqlı səfərlərin təşkili, eyni zamanda, təcrübə mübadiləsi, partiyaların gəncləri, diasporlar, vətəndaş cəmiyyətləri arasında münasibətlərin inkişafını, informasiya mübadiləsinin gücləndirilməsini nəzərdə tutur.

## Azərbaycan-İran sərhədində atışma olub, ölən var




Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi məqsədilə sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir. DSX-nın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, 2021-ci ilin 07 dekabr tarixində saat 16:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Yardımlı rayonunun Daşkənd kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən 2 nəfər naməlum şəxsin dövlət sərhədini pozaraq ölkə ərazisinə gəlməyə cəhd etmələri aşkar olunub.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək sərhəd pozucuları təqib edilmiş və havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmamış, sərhəd naryadına qarşı odlu silahdan atəş açmış, əllərindəki 2 ədəd bağlamanı ataraq hadisə yerindən geriyə qaçmağa cəhd göstəriblər. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq sərhəd naryadı tərəfindən sərhəd pozucularına qarşı silah tətbiq olunmuş və onlardan biri zərərsizləşdirilib. Hazırda həmin sərhəd pozucusunun şəxsiyyətinin müəyyənləsdirilməsi üzrə tədbirlər görülür. Digər sərhəd pozucusunun axtarışı üzrə daxili işlər orqanları ilə birgə tədbirlər həyata keçirilir. Hadisə yerində aşkarlanmış 2 ədəd bağlamada 4270 ədəd "Marlboro", "Kent", "More" markalı siqaret qutusunun olması müəyyən edilib. Hadisə barədə İran tərəfi məlumatlandırılıb. Dövlət Sərhəd Xidmətinin rəhbər vəzifəli zabitləri hadisə yerinə ezam olunublar.

## "Peşəkar media məkanı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır"



"Bu gün inkişaf edən, region və dünya siyasətində öz xətti ilə sayılıb-seçilən Azərbaycan Respublikasının uğurlarının təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Respublikamızda Ulu Öndər Heydər Əliyevin imzası görünməyən, əməyi keçməyən hər hansı bir proses, hər hansı bir sahə yoxdur". Media eksperti Müşfiq Ələsgərli "Səs" qəzetinə açıqlamasında bildirdi.

Onun sözlərinə görə, siyasi, iqtisadi, sosial, humanitar mövzularda danışarkən, bu sahələrdəki inkişafı müzakirə edərkən istənilən halda Ulu Öndər Heydər Əliyevin adını çəkirik, onun əməyini, zəhmətini qeyd edirik: "İstər sovet hakimiyyəti zamanı, istərsə də müstəqillik dövründə Ümummilli Lider Heydər Əliyev daim öz doğma Azərbaycanına ləyaqətlə xidmət edib, ölkəni güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevirib. Ölkəmizin sosial-iqtisadi və mədəni tərəqqisini təmin edib, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, milli elitanın formalaşdırılması, sağlam və intellektul gənc nəslin yetişdirilməsi istiqamətində misilsiz nailiyyətlər qazanıb. Bu gün Azərbaycanda mövcud olan peşəkar media məkanı, demokratik informasiya mühiti də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Onun imzası ilə ölkəmizdə senzura ləğv edilib, demokratik rujlu KİV qanunu qəbul edilib, mediaya özünütənzimləmə status verilib. Yəni, Ümumilli Lider həm dünya, həm də Azərbaycan tarixində öz adını elə həkk edib ki, onu xatırlamamaq mümkün deyil.

Allah Ulu Öndərimizə rəhmət eləsin. Azərbaycan Respublikası, Azərbaycan xalqı var olduqca, Ümummilli Lider Heydər Əliyevin adı xatırlanacaq, əbədiləşdiriləcək".

***Gülyana***

## Azərbaycan səfiri Əli Əlizadə iranlı nazirlə görüşüb



Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfiri Əli Əlizadə İran İslam Respublikasının energetika naziri Əli Əkbər Mehrabian ilə görüşüb. SİA-nın məlumatına görə, Azərbaycanın İran üçün yaxın dost və qonşu ölkə olduğunu bildirən Əli Əkbər Mehrabian, iki ölkə arasında sıx tarixi bağların və dəyərlərin olduğunu diqqətə çatdırıb. Nazir Azərbaycanla energetika sahəsində əlaqələrin inkişafında maraqlı olduqlarını və bu müstəvidə icra olunan layihələrin tezliklə başa çatdırılması, yeni müştərək layihələrin nəzərdən keçirilməsinin zəruriliyini vurğulayıb. Rəhbərlik etdiyi nazirliyin Azərbaycanın aidiyyəti qurumları ilə əməkdaşlığının daha da möhkəmlənməsində səylərin artırılmasının önəmini qeyd edən Əli Əkbər Mehrabian iki ölkə arasındakı münasibətlərin inkişafı naminə səmərəli xidməti fəaliyyətində səfir Əli Əlizadəyə uğurlar arzulayıb.

Azərbaycan Respublikasının İranla çoxşaxəli əlaqələrinin inkişafında energetika sahəsinin də aparıcı rolunun olduğunu qeyd edən səfir Əli Əlizadə icra olunan layihələrin bunu bir daha təsdiq etdiyini bildirib. İranla sərhəddə 132 km Azərbaycan ərazilərinin erməni işğalından azad olunmasının yeni reallıqlar və əməkdaşlıq üçün bir çox imkanlar yaratdığını vurğulayan səfir Əli Əlizadə, həyata keçirilən önəmli layihələrdən biri olan Xudafərin/Qız qalası layihələrinin bunun təzahürü olduğunu vurğulayıb.

Görüşdə həmçinin, iki ölkə arasında həyata keçirilən hidroqovşaqların və su elektrik stansiyalarının tikintisi üzrə işlər, eləcə də elektrik enerjisi dəhlizi layihəsi və digər müştərək layihələrin icrası, səfərlərin və görüşlərin təşkili, fəaliyyət göstərən Birgə Texniki Komissiyanın iclaslarının keçirilməsinin davam etdirilməsi, həmçinin, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qarabağ müharibəsi bütün dünyaya xalqımızın gücünü və birliyini göstərdi

Təhlil

## İlham Əliyev: "Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq"

**"Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canı-qanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır".**




Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci Xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Qubanın Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanış olduqdan sonra dövlət başçısı qəsəbə sakinləri ilə görüşü zamanı bildirib. Cənab Prezident qeyd edib ki, quruculuq işləri, həm Qarabağda, həm də Zəngəzurda aparılır. 44 günlük Vətən müharibəsində Zəfər qazanan Azərbaycan qısa bir zamanda abadlıq və quruculuq işlərinin miqyasını genişləndirib.

Bildiyimiz kimi, Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində bütün infrastrukturu, sosial, iqtisadi, mədəni obyektləri, tarixi, dini abidələri tamamilə məhv edib. İşğaldan azad edilmiş şəhərlərimiz, qəsəbələrimiz və kəndlərimiz yerlə-yeksan olunub. Ermənilər öz çirkin əməllərini həyata keçiriblər. Bu gün işğaldan azad olunan Şuşa, Zəngilan, Ağdam kimi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri görülür və müasir tələblərə uyğun olaraq qurulur. Eyni zamanda, Kəlbəcər kimi ucqar rayonlar da diqqətdən kənarda qalmayıb. Pilot layihələr kimi Kəlbəcər rayonunda arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərə lazımı şərait yaradılıb. Həmin sakinlər onlar öz təsərrüfatlarını yaradıb və işə başlayıblar. Laçında Gülebird su elektrik stansiyası istifadəyə verilib. Şuşada "Xarıbülbül", "Qarabağ" otellərinin istifadəyə verilməsi, Füzuli Beynəlxalq Hava Limanının açılışı, yol infrastrukturunun qurulması və s. qısa bir zaman məsafəsində reallaşan layihələrdir ki, bütün bu və ya digər layihələr Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəricisidir. Bütün bunlarla yanaşı, Laçında və Zəngilanda beynəlxalq statuslu hava limanlarının tikintisinə başlanılıb. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonasına çevriləcək. Müharibədən bir il ötməsinə baxmayaraq, qətiyyətlə deyə bilərik ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş bərpa və quruculuq işləri aparılır. Əlbəttə ki, işğaldan azad olunan ərazilərin bərpası böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən proses olsa da ölkəmizin iqtisadi gücü bütün bunlara imkan verir. Bildiyimiz kimi, "Ağıllı kənd" layihəsi müasir çağırışlara cavab verən və beynəlxalq standartlara əsaslanan yeni bir modeldir. Layihə Zəngilanın 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərini əhatə edir. Bu o deməkdir ki, bu kəndlərdə bütün yaşayış evləri, sosial obyektlər və s. müasir tələblər çərçivəsində qurulacaq.

### QUBA-QONAQKƏND AVTOMOBIL YOLUNUN İSTİSMARA VERİLMƏSİ 68 MİN NƏFƏRİN RAHAT GEDİŞ-GƏLİŞİNİ TƏMİN EDIR

Əlbəttə ki, abadlıq-quruculuq işləri təkcə işğaldan azad olunan ərazilərdə deyil, həmçinin Azərbaycanın digər bölgələrində də sürətlə reallaşır. Quba da bu sırada olan məkanlardandır. Belə ki, 2020-ci ildən etibarən, rayonun Qonaqkənd qəsəbəsində kompleks abadlıq və quruculuq işləri həyata keçirilib. Qəsəbədə Ümummilli Lider Heydər Əliyevin abidəsinin ətrafında yeni park salınıb. Həmçinin, qəsəbə Mədəniyyət Evinin istifadəyə yararsız, qəzalı vəziyyətdə olan binası sökülərək, əvəzində yenisi inşa olunub. Quba-Qonaqkənd avtomobil yolu çəkilib. Prezident İlham Əliyev Quba-Qonaqkənd avtomobil yolunun açılışını edib. 46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişi təmin olunur. Bu yol uzun illər əsaslı təmir olunmadığı üçün hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Bu isə yolda nəqliyyatın hərəkətini çətinləşdirirdi. "Kəndin əsas problemi yol problemi idi. Doğrudan da, bu yolun çəkilməsi hesab edirəm ki, tarixi hadisə sayıla bilər", - deyən dövlət başçısı bildirib ki, Quba rayonunda əhəmiyyət baxımından bir Xınalıq yoludur, bir də Qonaqkənd yolu idi: "Xınalıq yolu da keçilməz bir yol idi, oraya da gedib çatmaq üçün saatlarla vaxt lazım idi və qış aylarında, ümumiyyətlə, təcrid vəziyyətində idi... Nəhayət, biz buna nail olduq. İndi Qubadan buraya təxminən yarım saata gəlmişəm. Düzdür, Mən gələndə yollar açıq olur, amma hər halda 40-45 dəqiqəyə gəlmək olar". Azərbaycan Prezidenti çəkilən yolun sakinlərin rahatlığının təminatında əhəmiyyətinə nəzər salıb. "Kəndin xəstəsi, yaşlısı var, kəndə gəlmək, getmək, burada istehsal olunan məhsulları bazarlara çatdırmaq çətin idi. Yol olandan sonra işlər də düzələcək", - deyən Prezident qeyd edib ki, çünki burada indi camaatın əsas dolanışığı maldarlıqdır. Onu da deyək ki, Quba-Qonaqkənd yolunun yenidən qurulması həm də əhalinin tədarük etdiyi kənd təsərrüfatı məhsullarını, meyvə-tərəvəzi qısa vaxtda istədikləri ünvana çatdırmağa imkan yaradır, həmçinin turizm imkanlarını daha da genişləndirir. Cənab Prezident ərazidə görülən digər işlərə də toxunaraq diqqətə çəkib: "kəndə qaz da çəkilib, artıq iki ildir ki, qaz verilir. İşıq da var, su da var".

### QUBA YENİ DÖVRÜNÜ YAŞAYIR

Onu da bildirək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci Xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva və Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış olublar. Təhsil müəssisəsində müasir standartlara cavab verən yeni məktəbin inşası keyfiyyətli və bərabərhüquqlu təhsil imkanının yaradılması deməkdir. Müasir infrastruktur tədrisin keyfiyyətinə birbaşa müsbət təsir göstərən amillərdəndir.

"Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışında da bu ərazidə görülən işlərin genişmiqyaslı olduğunu göstərir. "ABAD Factory" bir neçə ildir, qubalı mikro və kiçik sahibkarlara qida istehsalı müəssisəsi kimi tanış idisə, artıq həm də qablaşdırma vasitələrinin istehsalı müəssisəsi kimi onlara yardımçı olacaq. Müəssisənin açılışı ilə ilkin mərhələdə 20, sonrakı mərhələdə isə 50 nəfərin işlə təminatı reallaşacaq. Bu müəssisə vasitəsilə həm "ABAD"çıların qablaşdırma vasitələrinə olan tələbatı ödəniləcək, həm də digər kiçik və mikro sahibkarların ehtiyacları qarşılanacaq. Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərinin aparılması da görülən işlərin məntiqi davamıdır. Yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra obyektin bazasında Quba İstirahət, İdman, Təlim və Tədris Kompleksi yaradılıb. Burada istirahət, idman, təlim və tədris bir məkanda cəmləşib. Həmçinin, bu cür komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir. Kompleksdə 200-250 işçinin çalışacağı nəzərdə tutulur.Bu o deməkdir ki, artıq Qubada insanların rahat yaşayışı təmin olunub. Bu onu bir daha təsdiqləyir ki, Azərbaycan pandemiya dövründə yaşamasına baxmayaraq, bütün layihələr uğurla reallaşır.

### "HƏR HANSI BİR REVANŞİST MEYİL OLARSA, ONUN MƏSƏLƏSİ DƏRHAL YERİNDƏCƏ HƏLL OLUNACAQ"

Qəsəbə sakinləri ilə görüşü zamanı Cənab Prezident Qarabağ müharibəsində qazandığımız Zəfər bizim hamımızın Qələbəsidir, -deyərək, hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırdığını bildirib. Dövlət başçısı onu da bildirib ki, bizim son vaxtlar apardığımız işlər onu göstərir ki, hər hansı bir revanşist meyil olarsa, onun məsələsi dərhal yerindəcə həll olunacaq: "Çünki müharibədən sonra Ermənistan tərəfindən bir neçə dəfə belə cəhdlər oldu və onun acı nəticələrini onlar özləri gördülər. Ona görə hələ ki, gec deyil, mən onlara artıq dəfələrlə müraciət edərək demişdim, bizim şərtlərimizi qəbul etməlidirlər, yollarla, kommunikasiyalarla bağlı hər hansı bir qeyri-səmimi yanaşmaya son qoyulmalıdır. Əgər belə olarsa, onda Cənubi Qafqazda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində yaşayacaq. Çünki biz istədiyimizə nail ola bilmişik, bunu hər kəs gördü".

30 ilə qədər işğalda olan torpaqlarımızın azad olunması istiqamətində Azərbaycanın tutduğu haqq və ədalət yolundan kimsə çəkindirə bilməzdi. "Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi",- deyən Cənab Prezident diqqəte çəkib ki, müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər: "Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi".

***Zümrüd BAYRAMOVA***

# "YAŞAT"

## Fondunun birillik fəaliyyəti xalqımızın humanizm prinsiplərinə sadiqliyinin təsdiqidir

**Azərbaycan 30 ilin işğalına 44 gündə son qoydu. Bu, böyük şücaətin, qəhrəmanlığın, ən əsası düşünülmüş siyasətin, torpaq, Vətən sevgisinin nəticəsidir. Artıq Dağlıq Qarabağ deyilən ərazi vahidi yoxdur. 30 il dünyaya bəyan edilən Qarabağ həqiqətlərinin fonunda formalaşan möhkəm hüquqi baza Azərbaycanın döyüş meydanında da üstünlük qazanmasını şərtləndirdi. İşğalçı Ermənistan və ona havadarlıq edənlər ədalətin, beynəlxalq hüququn norma və prinsiplərinin mövcudluğunu qəbul etməli oldular. Azərbaycan yeni reallıqlar yaratdı, diktə edən tərəf kimi hər kəsdən bu reallıqlarla barışmağı tələb edir. Azərbaycanın ərazi bütövlüyünün bərpasının təqdimatı olan 44 günlük İkinci Qarabağ müharibəsinin qəhrəmanları olan şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik.**



*Vüqar Rəhimzadə,*
***Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru***

Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, işğal altında olan ərazilərimizin azad edilməsi uğrunda aparılan döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərdilər. Ölkəmizdə hərbi qulluqçuların, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin əsas tərkib hissəsidir. Bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmış, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Bununla yanaşı, şəhid ailələrinin və Vətənin müdafiəsində iştirak edən şəxslərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması daim vətəndaş cəmiyyətinin də diqqət mərkəzindədir. Azərbaycan xalqı xeyirxahlıq, fədakarlıq və humanizm prinsiplərini rəhbər tutaraq, təmənnasız kömək ənənələrini davam etdirir, vətəndaşlarımız, xarici ölkələrdə yaşayan soydaşlarımız, sahibkarlar, humanitar və digər təşkilatlar şəhid ailələrinin, müharibə iştirakçılarının və qazilərin zəruri ehtiyaclarının təmin edilməsinə, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsinə yardım sahəsində həmrəylik nümayiş etdirirlər.

Şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə dövlət başçısı İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması da ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Artıq Fondun fəaliyyətinin bir ili tamam olur

Bəzi mühüm məqamlara diqqət yetirək. Ötən ilin 8 noyabr tarixində Qarabağın tacı, Azərbaycanın döyünən ürəyi olan Şuşamızın işğaldan azad edilməsi müjdəsini dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev hansı məkandan xalqımıza çatdırdı? Təbii ki, Şəhidlər xiyabanından. Bu, müharibənin qəhrəmanı olan şəhidlərimizin ruhuna böyük hörmət idi. 44 günlük müharibə Azərbaycanın hərbi-siyasi Qələbəsi ilə başa çatdıqdan sonra dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ilk görüşünə gəldikləri kimlər oldu? 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilər. Bu görüşdə Müzəffər Ali Baş Komandan "Azərbaycan sizin sayənizdə yeni bir dövrə qədəm qoyacaq" söyləyərək bildirmişdir ki, ona görə bu gün, müharibə başa çatandan dərhal sonra sizə öz hörmətimi ifadə etmək üçün gəlmişəm: "Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar." Möhtərəm Prezidentimiz dəfələrlə bu məqamı qeyd etmişdir ki, bu Qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu Qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir.

Vətən müharibəsi dövründə xarici mətbuata çoxsaylı müsahibələrinin birində ölkə Prezidenti İlham Əliyevin "Müharibə hələ davam edir. Cənab Prezident, Sizə ən çox təsir edən, kədərləndirən, ən çox sevindirən nələr oldu" sualına cavabını da yada salmaq istərdik. "Ən çox kədərləndirən bizim itkilərimizdir" söyləyən dövlət başçısı bildirmişdir ki, gənc əsgərlərimiz fədakarlıq, rəşadət göstərərək doğma torpaqların uğrunda şəhid olurlar. Bu, xalqımız üçün, onların yaxınları, valideynləri üçün böyük faciədir. Ona görə də hər bir azərbaycanlının həlak olması mənim üçün ən böyük üzüntüdür, istər mülki vətəndaş olsun, istər hərbçi olsun, fərq etməz, onların hamısı bizim soydaşlarımızdır, bizim övladlarımızdır, qardaşlarımızdır: "Ən çox sevindirən isə Azərbaycan xalqının iradəsidir. Çünki mərmi altında yaşayan insan yerindən tərpənmir. Tərtəri Ermənistan Stalinqrada çevirir, ikinci Ağdama, Füzuliyə çevirmək istəyir İnsanlar yaşayır. Yəni, bu erməni faşizmidir. Bir də ki, qorxutmaq istəyir. Bir də ki, fikri gedir 1990-cı illərə ki, onlar bizə hücum edirdilər, bizim ordumuz onların qabağında dura bilmirdi və bizim vətəndaşlar o bölgələri tərk edirdilər, qaçqın və məcburi köçkünə çevrilirdilər. O fikirlə yaşayırlar. Amma bilməlidirlər ki, indiki Azərbaycan o Azərbaycan deyil. İndiki Azərbaycan güclü dövlətdir və özünü qoruya bilən bir dövlətdir. Bizim insanlarımız mərmi altında yaşayır, oranı tərk etmir, evləri yanır, malları batır, amma deyirlər ki, təki "Vətən sağ olsun!" Bax, məni ən çox sevindirən budur. Eyni zamanda, bununla bərabər, bizim bayrağımızı işğaldan azad edilmiş torpaqlarda görməyimdir. Məni ən çox sevindirən, bax, bunlardır".

Şəhidlərimiz qanı ilə, döyüşçülərimiz sağlamlıqlarını itirərək, eyni zamanda, dövlətimizin qətiyyəti, xalqımızın iradəsi sayəsində tariximizə Zəfər səhifəsi yazıldı. Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 8 noyabr tarixinin Zəfər Günü, 27 sentyabrın Anım Günü kimi təsis olunması da bütün bu məqamları özündə ehtiva edir. Şəhidlərimizin, qazilərimizin götərdikləri qəhrəmanlıq, Vətən, torpaq sevgisi gənclərimiz üçün bir nümunə, məktəbdir. Azərbaycan xalqı bu Zəfəri ilə bir daha yenilməzliyini, məğrurluğunu dünyaya nümayiş etdirdi. Bir daha sübut olundu ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir.

Şəhid ailələrinə, hərbçilərimizə diqqət və qayğı daim dövlət siyasətinin əsasını təşkil edir. Onların sosial problemlərinin həlli hər zaman dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin Qələbənin əbədiləşdirilməsinə xidmət edən addımlarına diqqət yetirək. Vətən müharibəsində Qələbə münasibətilə "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal təsis olunub. Həmin orden və medalların təsis olunması Qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına göstərilən diqqətin təzahürüdür. Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermis Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə müvafiq qurumların ön cəbhədə fədakarlıq göstərmiş əməkdaşları və mülki işçiləri orden və medallarla təltif edilib və bu proses hazırda da davam edir.

Prezident İlham Əliyevin tarixi Qələbəmizdən sonra imzaladığı Fərman və Sərəncamların say tərkibinə və mahiyyətinə diqqət yetirəndə bir daha aydın olur ki, atılan addımlarda əsas məqsədlərdən biri şəhidlərimizin, döyüşçülərimizin vətənpərvərliyini unutmamaq, onların göstərdikləri şücaətdən qürurlanmaq, keçdiyi həyat yolunu hər bir gəncin özü üçün vətənpərvərlik məktəbi kimi dəyərləndirməsinə nail olmaqdır. "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz.

Əvvəldə də qeyd etdiyimiz kimi, dövlət başçısı İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu) yaradılıb. Dövlət hər bir vətəndaşının yanındadır. Xüsusilə torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası yolunda canından keçən şəhidlərimizin ailələrinə diqqət və qayğı dövlət siyasətinin əsasında dayanır. Dövlətlə yanaşı, hər bir Azərbaycan vətəndaşı, dövlət və özəl qurumlar bu kateqoriyadan olan insanlara, qazilərimizə diqqət və qayğı ilə yanaşmağa, onlara dəstək olmağa borcludurlar. Xalqımızın 44 günlük İkinci Qarabağ müharibəsində nümayiş etdirdiyi birliyi istər şəhid ailələrinə, qazilərimizə diqqət və qayğıda, istərsə də soydaşlarımızın Böyük Qayıdışını təmin etmək üçün işğaldan azad edilmiş ərazilərimizin bərpa və quruculuq işlərində görürük. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. "YAŞAT" Fondunun yaradılmasında da məqsəd qeyd etdiyimiz kimi, şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir. Şəhidlərimizin xatirəsi bizim üçün hər zaman əzizdir, onların həyat yolu vətənpərvərlik məktəbidir. Ulu öndər Heydər Əliyevin "Gənclərimizi necə tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır" tezisi bütün dövrlərdə öz aktuallığını qoruyur. Belə fədakarlıq, şücaət göstərib Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananlara və şəhidlərimizin ailələrinə təmənnasız dəstək göstərmək hər birimizin borcudur.

"YAŞAT" Fondunun yaradılmasından ötən bir ildə görülən tədbirlərə və əldə edilən nəticələrə statistik rəqəmlər əsasında diqqət yetirməklə bir daha birliyimizin, həmrəyliyimizin, xalqımızın xeyirxahlıq və könüllülük prinsipinə sadiqliyinin şahidi olarıq. 2 dekabr 2021-ci il tarixinədək Fondun hesabına 64 773 763.77 AZN vəsait mədaxil olub. Ölkə ərazisində 2 916 şəhid ailə üzvləri, habelə 4 946 yaralı olmaqla ümumilikdə 16 348 şəxslə görüşərək ehtiyacları qeydə alınıb və 10 781 şəxsin 15 644 müraciəti icra olunub. Məişət şəraitinin yaxşılaşdırılması üzrə ümumilikdə 8 403 müraciət təmin edilib. 27 sentyabr 2020-ci il tarixindən sonra dünyaya gələn 102 şəhid övladı ilə bağlı Fond tərəfindən həyata keçirilən "Onlar bizə əmanət" layihəsi çərçivəsində yeni doğulmuş şəhid övladlarının zəruri xərclərinin qarşılanması məqsədi ilə 1000 manat məbləğində maddi yardım edilib və şəhid övladlarının adına 5000 manat məbləğində depozit hesabı açılıb. Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 137 və yaralıların 20 müraciəti olmaqla ümumilikdə 157 müraciət təmin edilib. Fondun təşəbbüsü ilə təhsil haqqının qarşılanması üzrə təhsil müəssisələri tərəfindən 222 822 manat vəsait qarşılanıb. 2 dekabr 2021-ci il tarixinədək Dövlət Agentliyinin "YAŞAT" Fondu ilə iş şöbəsi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Türk Dünyası Bakı Atatürk Liseyi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, Hədəf liseyi, Kaspi Tədris Mərkəzi, Evrika Liseyi, Dünya məktəbi və "Dərs evi" tədris mərkəzi arasında şəhidlərin övladlarına ödənişsiz təhsil alması məqsədilə niyyət protokolu imzalanıb. 2021-2022-ci tədris ili üzrə rəsmi olaraq akkreditasiya olunmuş ali təhsil müəssisələrinə qəbul olmuş şəhid ailələrinin üzvlərinə və Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara "YAŞAT" Fondu tərəfindən birdəfəlik pul mükafatı - 2000 manat təsis edilib.

Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 2 988 və yaralıların 2 473 müraciəti olmaqla ümumilikdə 5 461 müraciət təmin edilib. Ümumilikdə 150 ağır yaralı müalicə edilməsi məqsədi ilə Türkiyəyə göndərilib, onlardan 117-si ölkəyə geri qayıdıb. Hazırda 33 ağır yaralının müalicəsi Türkiyədə davam edir. "YAŞAT" Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib. Ciddi fiziki travma alan yaralıların fiziki bərpa prosesini daha da sürətləndirmək üçün "YAŞAT" Fondu tərəfindən xaricdən sifariş edilən "RGO" ortopedik cihazları ölkəmizə gətirilib.

Təbii ki, qeyd etdiklərimiz görülən işlərin yalnız az bir hissəsidir. Bu rəqəmlər "YAŞAT" Fondunun fəaliyyətinə işıq salmaqla yanaşı, vətəndaşlarımızın təmənnasız, könüllü dəstəyinin, şəhid ailələrinə, qazilərmizə diqqət və qayğılarının aydın mənzərəsini yaradır. Xalqımızın 30 illik torpaq həsrətinə son qoyub, milli qururumuzu, kimliyimizi özümüzə qaytaran, işğaldan azad edilən ərazilərimizdə üçrəngli bayrağımızın dalğalanmasını, torpaqlarımızın öz sahibinə qayıtmasını təmin edən, öz qanları, canları ilə tarix yazan şəhidlərimizin ailələrini, qazilərimizi yaşatmaq üçün "YAŞAT" Fonduna dəstək olaq. Belə təşəbbüslər bizi daha da birləşdirir, həmrəy edir.

# Əfqanıstana çevrilən Suriya - yeni narkotrafik marşrutu







**Narkotik maddələrin qanunsuz istehsalı və dövriyyəsi transmilli cinayətdir. Bu barədə BMT-nin "Cinayətkarlıq və ictimai təhlükəsizlik haqqında" Bəyannaməsində də vurğulanıb. Bu istiqamətdə təşkilat 1961-ci ildə vahid konvensiya, 1972-ci ildə Protokol, 1971-ci ildə Psixotrop maddələr haqqında konvensiya, 1988-ci ildə isə Narkotik və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında konvensiya qəbul edib.**

Narktotik maddələrin qanunsuz istehsalı və dövriyyəsi ilə terrorçuluq, separatçılıq kimi cinayətlər bir sırada durur. Terrorçuluq və separatçılıq olan yerdə narkotik maddələrin qanunsuz dövriyyəsi və s. bir-biri ilə əlaqəli olur. Beynəlxalq səviyyədə tanınan və ya tanınmış bütün terrorçu qruplaşmalar maliyyə vəsaitini bu sahədən gələn gəlir hesabına əldə edirlər.

İŞİD ən varlı terrorçu qruplaşma sayılırdı. Onun büdcəsi narkotik maddələrin və neftin qanunsuz dövriyyəsindən əldə edilən gəlir hesabına formalaşırdı. Ona görə də İŞİD-in Suriyada narkotik maddə istehsal etdiyinə dair xəbərlər yayılırdı. Narkotik və ya psixotrop maddələrin hesabına varlanmaqla yanaşı, cinayətkar dəstələr üzvlərinə həmin uyuşdurucuları qəbul etdirirlər. Bununla da onlarda "cəsarətli" və "qorxmaz" "döyüşçü" obrazı yaradırlar. Lap Həsən Sabbahın xaşxaşilər hərəkatında olduğu kimi.

İntiharçı-terrorçular, cəllad qatillər bu sayaq süni vasitələrin hesabına formalaşdırılır. Belə maddələrdən biri amfetamindir (ona "kaptaqon" da deyirlər). Bu, "dəhşət iksiri" adlanır. Terrorçu qruplaşma üzvləri narkotik maddə qəbul etməklə özlərini güclü sayır, manqurtlaşırlar. Qeyd edək ki, bu preparatla bağlı ilk elmi sınaqlar İtaliyada keçirilib. Karabinerlər (hərbçilər) 2013-cü ildə Liviyadakı parakəndə yaraqlı qrupları nizami orduda birləşdirmək üçün göndəriləndə onların apardıqları analizlər göstərib ki, potensial kursantların 30 faizdən çoxu narkotik maddə aludəçiləridir.

2021-ci ildə Əfqanıstanda hakimiyyəti ələ keçirən "Taliban" hərəkatının büdcəsinin də narkotik maddələrin qanunsuz dövriyyəsindən formalaşdığı barədə çox yazılıb. Əfqanıstana bir ildə tiryəkin satışından 1,5-3 milyard dollar gəlir əldə edib. "Taliban" rəsmi olaraq narkotik maddələrin qəbulunu qadağan etsə də, xaşxaş sahələri onların nəzarəti altındadır. Məlumata görə, son on ildə dünya bazarına çıxarılan heroinin demək olar ki, hamısı Əfqanıstan mənşəlidir. Bu ölkədə istehsal olunan narkotik maddələr Mərkəzi Asiya ölkələrindən Rusiyaya, İrandan Türkiyəyə, oradan isə Avropa və Qərb ölkələrinə ixrac edilir.

Son zamanlar Dəməşq rejiminin başçısı Bəşşar Əsədin də narkotik maddələrin istehsalı və dövriyyəsi ilə məşğul olduğuna dair faktlar aşkar edilib, araşdırma yazılar dərc olunub. Suriya bir vaxtlar İŞİD üzvlərinin qəbul etdiyi "kaptaqon"un istehsal edən əsas ölkələrdəndir. Məlumatlara əsasən, Suriya "kaptaqon"un qlobal mərkəzi sayılır. Bu psixotrop maddə ölkədə sənayeləşib. Bir vaxtlar dünya bazarına müxtəlif sənaye malları və neft çıxaran bu ölkənin adı indi daha narkotik maddələrin qanunsuz dövriyyəsi, istehsalında hallanır. Əvvəllər Suriyanın keçmiş Prezidenti Hafiz Əsədin və sonralar Bəşşar Əsəd hakimiyyətinin kimyəvi silah əldə etdiklərinə dair xəbərlər yayılırdı. Bəşşar Əsədin bu silahdan istifadə etdiyi belə təsdiqlənmişdi. Onda belə çıxır ki, Bəşşar Əsəd rejimi ölkənin keçmiş elmi potensialını indi də kimyəvi tərkibli narkotik maddələr istehsalına sərf edir. "Kaptaqon" Latakiya limanı vasitəsilə "dünya bazarı"na daşınır. Bu limana isə Bəşşar Əsədin əmisi oğlu Samir əl-Əsəd nəzarət edir. Narkotik maddələrin qanunsuz dövriyyəsi və istehsalı isə Dəməşq rejimi başçısının kiçik qardaşı, Suriya ordusunun 4 - cü zirehli tank alayının komandanı Mahir əl-Əsədin rəhbərliyi ilə həyata keçirilir. Məlumatlara görə, 2020-ci ildə Suriyadan bazara 3,46 milyard dollarlıq "kaptaqon" ixrac olunub. Baş verənlərə və yayılan xəbərlərə əsasən, belə qənaətə gəlmək olar ki, Bəşşar Əsəd "Suriyada xarabalıqları üzərində narkotiklər imperiyasını" qurur. Milyonlarla vətəndaşı didərgin düşən, ərazisinin yarısına nəzarəti itirən, İran və Rusiyanın yardımı hesabına hakimiyyətini qoruyan Bəşşar Əsəd rejimini qorumaq üçün narkotik maddələrin qanunsuz dövriyyəsindən milyardlarla dollar qazanır.

Bir neçə il əvvəl İtaliyanın cənubunda Neapol Gömrük Mühafizə Polisi Suriyada İŞİD tərəfindən istehsal olunan 14 ton narkotik tərkibli həb ələ keçirdiyini bildirmişdi. Bu, dünyada indiyədək bir dəfəyə ələ keçirilən ən yüksək miqdarda amfetamin həbidir. Neapol Prokurorluğu tərəfindən Salerno Limanında baş tutan əməliyyatda ələ keçirilən 84 milyon amfetamin həbinin Suriyadakı İŞİD silahlıları tərəfindən təşkilatı maliyyələşdirmək üçün istehsal edildiyi bildirilirdi. Bu miqdarda amfetamin həbinin qanunsuz satışı təşkilata bir milyard avrodan çox gəlir gətirəcəkmiş. İndi isə İtaliya, Yunanıstan, İndoneziya, Malayziya, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Türkiyə və başqa ölkələrin rəsmiləri Suriyadan qaçaq yolla gətirilən narkotik maddələrin tutulduğuna dair bəyanatlar veriblər. 2020-ci ildə dünya üzrə 250 milyon "kaptaqon" həbi götürülüb və bu da 4 il əvvəlin göstəricisindən 18 dəfə artıqdır.

On ildir Bəşşar Əsəd rejimini hansı maliyyə vəsaiti hesabına saxlayır? O, neft yataqlarının hamısına nəzarət etmir. Gömrük məntəqələri və başqa gəlir mənbələri də əldən çıxıb. O zaman Dəməşq rejiminin narkotik maddələrin qanunsuz istehsalı və dövriyyəsi ilə məşğul olmasına dair yayılan məlumatlar, mülahizələr, arqumentlər təsdiqlənir. Deməli, Bəşşar Əsəd tabeliyində olan qüvvələrin istehsal etdiyi narkotik maddələrin qanusuz dövriyyəsindən gələn gəlirlərin hesabına hakimiyyətini qoruyur, guya seçki keçirir, ordusunu silahlandırır, nəzarəti altında olan ərazidəki əhalinin xərclərini ödəyir, dəvət etdiyi ölkələrin maliyyə xərclərini verir. Çünki bu rejimin özünü ayaqda saxlamaq üçün başqa maliyyə mənbəyi demək olar ki, yoxdur. Bu baxımdan Bəşşar Əsəd xilası narkotik maddələrin beynəlxalq satışında görür. O, özünü qorumaq üçün milyonlarla gənc, yeniyetməni zəhərləyir. Odur ki, BMT yuxarıda qeyd etdiyimiz bəyannaməyə uyğun olaraq addım ata bilər.

Son zamanlar Azərbaycan ictimaiyyəti "patı" adını tez-tez eşidir. Ölkədə bu psixotrop maddənin qanusuz satışı ilə məşğul olan çoxlu sayda insan həbs edilib. "Patı" mərkəzi sinir sistemini stimulyasiya edən sintetik narkotik maddədir. Bu, yeni metamfetamin laborator şəraitdə hazırlanan tam sintetik maddədir. Əhali arasında daha çox "patı" və "şüşə" kimi tanınmasının səbəbi həmin maddənin kimyəvi tərkibi və görünüşünün şüşə qırıntılarını xatırlatmasıdır. Bu maddə Azərbaycana hansı yolla gəlir? Ən başlıca yol cənubdur. İrandan ölkə gənclərini zəhərləmək üçün az qala hər gün bu maddənin keçirilməsinə dair xəbərlər yayılır.

Beləliklə, Rusiya və İran Suriyadakı rejimin ən qatı himayədarlarıdır. Qeyd edək ki, rəsmi Tehranın Əfqanıstandakı keçmiş və indiki "Taliban" hökuməti ilə də münasibət yaxşı olub. Rusiyadan Azərbaycana narkotik maddələrin gətirilməsi ilə bağlı xəbərlərə demək olar ki, rast gəlinmir. Onda qeyd etdiyimiz sualın cavabına aydınlıq gəlir. Suriyadan uçan təyyarələrə nəzarət olunmur. Başqa sözlə, Bəşşar Əsəd rejimi Rusiya, Çin və İranla əməkdaşlıq edir. Rejimin istehsal etdiyi "məhsul" Rusiyadan Avropaya, Çindən isə Asiya ölkələrinə daşına bilər. Bu baxımdan Azərbaycana narkotik maddələr, o cümlədən "patı" kimi kimyəvi "mallar" qanunsuz olaraq daha çox bir ölkədən iki mənbədən daşınır: Əfqanıstan-İran, Suriya-İran. Tətbiq edilən sanksiyalar səbəbindən İran iqtisadiyyatı ağır vəziyyətə düşüb. Odur ki, bu ölkədəki narkotacirlərin fəaliyyəti üçün geniş meydan açılıb. Yaranmış vəziyyət Suriyanı Əfqanıstana çevirib, İran isə narkotik maddələrin qanunsuz dövriyyəsi üçün əlverişli tranzit ərazisidir.

***Sədrəddin İsmayılov***

# Nə üçün gəlinlər qayınanaları ilə yaşamaq istəmirlər

## YENİ YANAŞMA

"Gəlin mənim süpürgəmdir, harada qoydum orda da durmalıdır". Ustad sənətkar Nəsibə Zeynalovanın "Qayınana" filmində işlətdiyi bu ifadə ölkəmizdə qayınanaların bir çoxunun evdə ağalıq etməsinin göstəricisidir. Günümüzün ən çox problem yaradan mövzularından biri də gəlin-qayınana problemləridir. İllərdir ki, bu iki cəbhə arasında münasibətlər durulmur. Qədim zamanlardan bəri ya qayınanalar gəlinlərini yola verməyk istəmir, ya da gəlinlər qayınanalarını saymırlar. Təbii ki, bunları bütün qayınana-gəlin münasibətlərinə şamil etmək olmaz. Əlbəttə ölkəmizdə mehriban gəlin-qayınana münasibətləri vardır. Niyə gəlinlər və qayınanalar bir-birlərini anlamırlar. Nə üçün hazırkı dövrdə gəlinlər qayınanalarından ayrı yaşamaq istəyirlər? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:



**Şəhər sakini Şəfiqə Fətəliyeva:** "Bəzi qayınanalar gəlinləri ilə yola getmirlər. Baxmayaraq ki, gəlin sakitdir, amma yenə də qayınanalar onları incidir. Hətta gəlinlərə əl qaldırırlar. Onları oğullarının yanında pis etmək üçün bütün gün danışırlar".



**Şəhər sakini Xuraman Əliyeva:** "Məncə, tənbəl gəlinlər qayınananı sevmirlər. Çünki, onlara sərf etmir. İstəyirlər öz bildikləri kimi etsinlər. Ona görə də qayınana ilə yaşamaq istəmirlər. Amma bu bütün gəlinlərə aid deyil. Elə gəlinlər var ki, onlara qayınana ilə yaşamaq da rahatdır".

**Şəhər sakini Ələkbər Əzizov:** "Hər ailədə gəlin-qaynana münasibətləri fərqlidir.



Bəziləri yaxşı yola gedir, bəziləri də heç yola getmirlər. Bir-birlərinin sözləri boğazlarından keçmir. Hər şey üstündə dava edirlər. İndiki zamanədə insanlarla dil tapmaq çətindi. Bəzi ailələr də var ki, onlarda hər şey normaldır. Qayınana gəlinin öz qızı kimi sevir, gəlin də qayınanaya hörmətlə yanaşır".

**Şəhər sakini Nahidə İsmayılova:** "Mənim oğlum yoxdur, amma qızım qabaqcadan şərtini qoyub ki, qayınana ilə yaşamaq istəmir. Bu o demək deyil ki, mənim qızım qayınanasına qarşı hər hansı bir səhv hərəkət edə bilər. Fikrimcə, hər bir insan, o cümlədən də mənim qızım özü necə istəyir elə yaşamalıdır. Sərbəst hərəkət etməlidir. Mən 40 ildir ki, evdar qadınam. Elə ola bilər ki, mənim evimə gələcək gəlin mənim qaydalarımla yaşamaq istəməyəcək. Mən onu məcbur edə bilmərəm. Elə gəlinlər var ki, qayınanalarından nəsə öyrənirlər, elələri də var ki, düşünürlər ki, qayınanadan daha yaxşıdırlar. Ona görə kim necə istəyir elə yaşamalıdır".





**Şəhər sakini Gülnar Abdullayeva:** "Hər kəsə şamil etmək düzgün deyil. Eləsi var günah gəlindədir, eləsi də var günah qayınanadadır. Hər kəsin ailəsində bu fərqlidir. Gərək evdə biri "od olanda digəri su olsun". Yoxsa çətin yola getmək olsun".



**Şəhər sakini Telman Cavadov:** "Fikrimcə, ağıllı gəlin qayınana ilə yaşayar. Çünki qayınanalardan öyrəniləcək çox şey var və qayınana gəlinə ana kimi yanaşmalıdır. Bu o demək deyil ki, qayınanalar gəlinlərinə zülm etməlidirlər. Bir-birlərinə hörmət etməlidirlər".



**Şəhər sakini Təranə Süleymanova:** "Mən özümdən misal çəkmək istərdim. Dörd qız övladım var və hər biri mənim üçün əzizdir. Hamısı da ailəlidir. Saf və təmizqəlbli gəlinlərin qiymətini bilmirlər. Qayınanalar çalışırlar ki, onlara zülm eləsinlər. Hal-hazırda mən stresliyəm, çünki qızımın qayınanası qızımı yola vermir, həyat yoldaşı ilə rahat yaşamağına imkan vermir. Yazıq gəlinlər qayınanaların əlindən gün üzü görmürlər. Mən demirəm ki, bütün qayınanalar pisdir. Əlbəttə, yaxşı qayınanalar da var. elə qayınanalar tanıyıram ki, anadan artıq gəlinlərinə analıq edirlər. Amma indiki dövrdə elə analar var ki, oğullarını qısqanırlar, övladlarının evini dağıtmaq istəyirlər".

*Abutel İlhamqızı*

# YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailəsini ziyarət edib





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Aqşin Bağırov, təşkilatın əməkdaşları və fəalları 6 dekabr 2021- ci il tarixdə Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar şəhərindən olan şəhid Əlizadə Tahir Qəribəli oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər. Daha sonra şəhidin məzarı ziyarət edilib və dərin ehtiramla yad edilərək məzarının üzərinə tər gül dəstələri düzüblər.

Allah şəhidlərimizə rəhmət eləsin!

*Rəfiqə*

# YAP Ağdam rayon təşkilatı şəhid Novruz Əsgərovun ailəsini ziyarət edib



Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının əməkdaşları və YAP könüllüləri Vətən müharibəsində şəhid olmuş mayor Əsgərov Novruz Ələddin oğlunun ailəsini ziyarət edib, onların qayğıları ilə maraqlanıblar. Sonra şəhidin məzarını ziyarət edərək, ruhuna dualar oxuyublar. Novruz Əsgərov






2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Novruz Əsgərov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağdam rayonunun Quzanlı qəsəbəsində dəfn olunub. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Novruz Əsgərov ölümündən sonra "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

*Zümrüd BAYRAMOVA*

# Nizami rayonunda Vətən müharibəsi şəhidi Anar Qumaşovun anım günü qeyd olunub

**Nizami rayonunda Vətən müharibəsi şəhidi Qumaşov Anar Saleh oğlunun anım günü qeyd olunub. Anım günü ilə əlaqədar Keşlə qəsəbəsindəki Şəhidlər Xiyabanında şəhidin məzarı ziyarət edilib.**

Anım mərasimində şəhidin ailə üzvləri, döyüş yoldaşları, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, Nizami Rayon İcra Hakimiyyətinin, Nizami və Keşlə bələdiyyələrinin, rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin məsul əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Vətən müharibəsi və şəhid Anar Qumaşov haqqında danışanlar şəhidlərimizə Allahdan rəhmət diləyib, bütün hərbçilərimizə, qazilərimizə möhkəm cansağlığı, şəfa arzulayıblar. Şəhid Anar Qumaşov kimi qəhrəman övlad böyütdüklərinə görə onun valideyninə, əzizlərinə təşəkkür edilib. Qeyd edilib ki, Anar Qumaşov Vətən müharibəsi zamanı Füzuli və Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib, qəhrəmancasına şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", Füzulinin və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.




Sonra Vətən müharibəsi şəhidi Anar Qumaşovun ruhuna dualar oxunub, məzarı üzərinə əklil, tər gül-çiçək dəstələri düzülüb. Daha sonra digər şəhidlərin ailə üzvləri ilə də görüş keçirilib, söhbət aparılıb.

# “Beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasətini görməzdən gəlir”



“Təəssüf ki, 30 il davam etmiş beynəlxalq və regional sülhə, təhlükəsizliyə ciddi təhlükə olan Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinin kobudcasına pozulmasının bir nümunəsi olmasına baxmayaraq, insan hüquqlarını ali dəyər kimi qəbul edən dünya ictimaiyyəti və Aİ, AŞPA, ATƏT kimi beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasətini görməzdən gəlir, 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşamasına ciddi reaksiya verməyiblər”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib

Onun sözlərinə görə, Avropa Şurası rəsmiləri Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində tarixi-mədəniyyət abidələrini məhv etməsini, məscidlərdə heyvanlar saxlamasını, böyük talançılıq törətməsini, şəhərlərdə daşı-daş üstündə qoymamasını nədənsə görməməzlikdən gəlib, 44 günlük haqq müharibəsi dövründə Gəncə, Bərdə, Ağcabədi və Tərtər şəhərlərində dinc əhalinin böyük dağıdıcı gücü olan bombalarla atəşə tutulmasına göz yumublar: ”Ötən 30 il ərzində Azərbaycan irqi ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı Beynəlxalq Konvensiyanın tətbiqi və təfsiri ilə əlaqədar Ermənistana qarşı beynəlxalq ədalət məhkəməsinə müraciət etmiş, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsindən zərər görmüş vətəndaşlarımız tərəfindən fərdi qaydada Avropa İnsan Haqları Məhkəməsinə müraciətlər olub.

Azərbaycan Respublikasının şanlı qələbəsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin ölkəmizin dinc sakinlərinə qarşı qeyri-insani, beynəlxalq humanitar hüquqa, xüsusən Cenevrə Konvensiyalarına zidd olan əməlləri, hərbi əməliyyatlar zonasından uzaq məsafədə yerləşən şəhər və kəndlərin, mülki infrastrukturun kasetli və fosforlu mərmilər, uzaqmənzilli ballistik raketlər ilə atəşə tutması, bunun nəticəsində çoxsaylı insan tələfatı, infrastrukturun dağıdılması ilə bağlı Azərbaycan Avropa İnsan Haqları Məhkəməsində Ermənistana qarşı iddialar qaldırıb. Ümid edirik ki, Avropa Məhkəməsi bu məsələdə öz prinsipiallığını nümayiş etdirərək Azərbaycanın haqlı müraciəti ilə bağlı ədalətli qərar verəcək və hüququn aliliyinin ayrı-ayrı dövlətlərin siyasi maraqlarından üstün olduğunu sübut edəcək”.

## “Noyabrın 14-16-da baş verən qarşıdurmanı Rusiya erməni əlaltıları vasitəsilə təşkil etmişdi”

“Azərbaycan-Ermənistan sərhədində təxribatlar daha çox Soçi görüşü ərəfəsində baş verdi. Bu təxribatların törədilməsində həm Ermənistanın, həm də Rusiyanın əli var idi”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.





Onun sözlərinə görə, noyabrın 14-16-da baş verən silahlı qarşıdurmanı Rusiya erməni ordusundakı əlaltılarının vasitəsilə təşkil etmişdi: ”Məqsəd üçtərəfli görüşü pozmağa çalışan Ermənistanı cəzalandırmaq və ona xəbərdarlıq etmək idi. Moskvaya bağlılığı ilə tanınan nazir Karapetyanın əmri ilə təxribat törədən ermənilər ordumuz tərəfindən ciddi cəzalandırıldı və hərbçilərimiz xeyli irəli gedib, yeni mövqelərdə yerləşdilər. Ertəsi gün N.Paşinyan heç bir izahat vermədən müdafiə nazirini vəzifəsindən azad etdi və ona sadiqliyindən başqa vəzifəsinə heç bir uyğun keyfiyyəti olmayan bir şəxsi ordunun başına gətirdi. Ancaq yeni nazir də heç bir hərbi intizama tabe olmayan, nizami ordudan daha çox başıpozuq quldur dəstələrinə bənzəyənlərin 16 noyabr təxribatının qarşısını ala bilmədi. Nəticədə, ordumuz tərəfindən Ermənistana növbəti ağır zərbələr endirildi, qırxa yaxın erməni əsgəri öldürüldü, itkin və əsir düşdü. Ermənilərin iki postu ordumuzun nəzarətinə keçdi. Yalnız bundan sonra hər iki ölkənin müdafiə nazirlərinin birbaşa əlaqəsinin yaradılması qərara alındı. Soçi görüşü ərəfəsində törədilən erməni təxribatlarının məqsədi nə idi? Mümkün qədər sərhədlərin müəyyənləşməsini ləngitmək”. A.Səmədov onu da bildirdi ki, Paşinyan yaxşı anlayır ki, delimitasiya və demarkasiya prosesi Ermənistana ciddi problemlər yaradacaq və əhalinin narazılığının artmasına səbəb olacaq: ”Çünki SSRİ dağıldıqdan sonra sərhədləri müəyyənləşdirmək mümkün olmadı və Rusiyanın həlledici yardımı ilə ermənilər ərazilərimizi işğal edib, orada istədiklərini etdilər. Azərbaycan torpaqlarında yollar salındı, yaşayış evləri və digər obyektlər tikildi. Sərhədlər müəyyənləşəndən sonra ərazi öz sahibinə qayıdacaq və Ermənistanın sərhəd bölgələri ciddi çətinliklərlə üzləşəcək. Bu çətinlikləri bir qədər ləngitmək, sərhədlərin müəyyənləşməsini gecikdirmək üçün törədilən erməni təxribatları onların özünə əlavə sıxıntılar yaradır və Ermənistanda vəziyyət günü-gündən pisləşir. N.Paşinyan vəziyyətdən çıxış yolu tapa bilmir və bu, onun Soçidəki davranışında açıq-aşkar göründü. Bir şey aydındır ki, erməni təxribatları heç bir nəticə verməyəcək və qısa müddət ərzində sərhədlərin delimitasiyası istiqamətində iş sürətləndiriləcək”.

***Gülyana***

TƏRS BAXIŞ



# AXCP və Müsavat

## Rəsul Quliyevin “qayıdışından” narahatdırlar

**GAP sədri Ağasif Şakiroğlu: "Bəzi boşboğaz partiyalar kimi yalnız danışmaqla kifayətlənəcəyəm?"**

Artıq bir neçə gündür ki, sabiq spiker, Gələcək Azərbaycan Partiyasının (GAP) lideri Rəsul Quliyevin Bakıya geri qayıdışı ilə bağlı fikirlər səslənməkdədir. Elə onun özü də bir neçə dəfə sosial şəbəkələrdə yazdığı statuslarında Azərbaycana geri dönəcəyi ilə bağlı şərhlər yazıb. Bu arada, GAP-ın sədri Ağasif Şakiroğlu mətbuata açıqlamasında bildirib ki, Rəsul Quliyevin Azərbyacana gəlişində hər hansı bir problem yoxdur və sabiq spikerin qayıdışının daha bir məqsədi iqtidarla müxalifətin ortaq dialoq nöqtəsinə gəlmək maraqlarının olmasıdır: ”Bunun istinad nöqtəsi kimi 2020-ci il başlamış müxalifət-iqtidar münasibətləri dayanır. Bu gün sivil müxalifət-iqtidar münasibətləri formalaşmaqdadır. Rəsul müəllim bu kontekstdən çıxış edərək fikirlərini ifadə edir. Düşünür ki, sivil müxalifət-iqtidar münasibətlərinin formalaşması onun ölkəyə gəlişinə hər hansı maneə yaratmır”.

### AXCP sədri Əli Kərimlinin, Müsavat başqanı Arif Hacılının nəzarətində olan sosial şəbəkə trolları GAP-ın lideri Rəsul Quliyevin qayıdışı planına qarşı müxtəlif kampaniyalar start verirlər

GAP sədrinin sözlərindən də belə nəticəyə gəlmək olar ki, əslində, onun lideri Rəsul Quliyev radikal müxalifətçilik tendensiyalarını qəbul etmir və bu cür siyasi mübarizəni gərəksiz hesab edir.

Yalnız konstruktivlik və sivil siyasi rəqabət sayəsində ölkədə normal siyasi münasibətləri düzənə salmaq olar. Radikalizmdən əl çəkə bilməyən AXCP, Müsavat və s. bənzər partiyalar isə artıq öz dövranlarını çoxdan sürüblər və xalq arasında, ictimai rəydə heç bir nüfuza, dəstəyə layiq görülmürlər. Əbəs deyil ki, artıq AXCP sədri Əli Kərimlinin, Müsavat başqanı Arif Hacılının nəzarətində olan sosial şəbəkə trolları GAP-ın lide- r i Rəsul Quliyevin geri qayıdışı planında narahatlıqlarını gizlədə bilmirlər, müxtəlif kampaniyalar start verirlər.

Onlar, daha dəqiq desək, trolların rəhbərləri, radikal müxalifətin partiya sədrləri yaxşı bilirlər ki, zamanında ”Milli Şura”da onlarla müəyyən sirrləri bölüşən sabiq spikerin bugünə qədər açıqlamadığı, demədiyi məsələlər var və onları hər zaman ifşa edə bilər. Bu baxımdan da müəyyən əngəllər yaratmağa cəhdlər göstərirlər.

### GAP sədri: ”Ola bilər ki, Rəsul müəllim 10-15 günlüyə ölkəyə gələr...”

Maraqlıdır ki, Rəsul Quliyev Azərbaycana gəlişinin birdəfəlik olmadığını da etiraf edib və deyib ki, səfər müddəti 10-15 gün çəkə bilər. Bunu GAP-ın sədri Ağasif Şakiroğlu da deyir və liderinin uğursuz siyasət aparmaq istəmədiyini bildirir.

O, məhz AXCP və Müsavatın rəhbərlərinə - Əli Kərimliyə və Arif Hacılıya eyham vuraraq Rəsul Quliyevin düşüncələrini belə ifadə edib: ”Özü (yəni Rəsul Quliyev) bildirir ki, ölkəyə gəlsəm, nə işlə məşğul olacam? Bəzi boşboğaz partiyalar kimi yalnız danışmaqla kifayətlənəcəyəm? Hesab edir ki, vətəndən uzaqda vətənə daha çox xeyir verir. Ola bilər ki, Rəsul müəllim 10-15 günlüyə ölkəyə gələr, görülən işlərlə tanış olar, əsgərimizin işğaldan azad etdiyi vətən torpaqlarına səfər edə bilər. Hələlik isə belə bir məsələ gündəmdə yoxdur”.

Göründüyü kimi, ölkə daxilindəki siyasi müxalifətin də çalarları dəyişir və illərdir radikal siyasət aparan cinahların da əksəriyyəti sivilliyə önəm verməyi daha üstün tuturlar. Lakin radikalizm siyasətində qalanlar hələ də ”bəlkə də qaytardılar” utopiyası altında ömür sürməkdə davam edirlər. Hər halda, əgər Rəsul Quiyev Azərbaycana geri dönərsə, radikal müxalifətin cəhdləri boş qalacaq, hətta onların ifşaları üçün yeni imkanlar yaranacaq. Gözləyərik, görərik...

***Rövşən RƏSULOV***

# Qarabağ, Xankəndi:

## proseslər Bakının istədiyi kimi gedir

**Son günlər Qarabağda, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətləri altındakı ərazilərdə baş verən və bir-birini tez-tez əvəzləyən hadisələr belə nəticəyə gəlməyə zəmin yaradır ki, artıq quldur və separatçı rejimin Ermənistanla əlaqələri tədricən azalır. Düzdür, ara-sıra müəyyən təxribatlar baş verir və həmin təxribatların qarşısını alan da məhz Azərbaycan Silahlı Qüvvələridir. Yəni Rusiya sülhməramlı kontingentinin (RSK) tam nəzarət edə bilmədiyi ərazilər də var ki, həmin ərazilərə məhz Azərbaycan əsgəri nəzarət etməkdədirlər. Bu səbəbdəndir ki, hazırkı dövrə qədər bir neçə silahlı təxribat cəhdlərinin, yaxud terror hadisələrinin qarşısı alınıb.**

*Bu gün Qarabağda separatçıların əmrləri altında yaşamaq istəməyən kifayət qədər erməni mövcuddur və onlara qalsa dərhal Azərbaycan vətəndaşlığını qəbul edərək ölkəmizin qanunları altında həyatlarını davam etməyə hazırdırlar*

Lakin bugünlərdə separatçılar tərəfindən "çoban" kimi təqdim edilən, ancaq diversiya qəsdi məlum olduqdan sonra məhv edilən erməni qulduru ilə bağlı hadisədən sonra baş verən daha bir hadisə maraqlı nüasnları üzə çıxarır. Məsələn, məlum olur ki, bu gün Qarabağda separatçıların əmrləri altında yaşamaq istəməyən kifayət qədər erməni mövcuddur və onlara qalsa dərhal Azərbaycan vətəndaşlığını qəbul edərək ölkəmizin qanunları altında həyatlarını davam etməyə hazırdırlar.

### Qor Martorisyan üçüncü şəxs tərəfindən Azərbaycan tərəfi ilə əlaqə qurmağa çalışıb

Digər tərəfdən xatırlatmaq olar ki, bir neçə gün əvvəl separatçıların əmrində olan erməni əsgəri Qor Martirosyanın RSK-nın müvəqqəti nəzarətində olan ərazidə aldığı ölümcül güllə yarasından sonra əldə edilən daha bir məlumat da bu səpkidəndir. Dəqiqləşdirmələrdən sonra aşkar olub ki, insident Şuşanın Qeybalı kəndi istiqamətində baş verib və hadisəyə bir gün qalmışa qədər Qor Martirosyan üçüncü şəxs tərəfindən Azərbaycan tərəfi ilə əlaqə qurmağa çalışıb. Səbəb kimi isə onun xidmət keçdiyi qanunsuz hərbi hissədə əsgər yoldaşları və komandirləri tərəfindən təzyiqlərə məruz qalması göstərilir. Mümkündür ki, onun Azərbaycan tərəfi ilə əlaqə yaratmaq planında separatçılar məlumatlı olublar, çünki Qor açıq telefon rabitəsi ilə danışıb. Dekabrın 6-da, təxminən saat 21:20 radələrində isə avtomat silahdan açılan ardıcıl atəş səsləri eşidilib. Hadisə yerinə gedən RSK təmsilçiləri Qorun güllələnmiş cansız bədəni ilə rastlaşıblar. Bu olaydan isə belə nəticə hasil etmək olar. Bu, separatçıların təsirləri altında yaşamaq istəməyən ermənilərə xəbərdarlıq atəşi idi ki, kimsə Azərbaycanın qanuni hakimiyyəti ilə əlaqə qurmağa cəhd edərsə, onu da Qor Martirosyanın məlum aqibəti gözləyəcək. Onlar ya öldürüləcəklər, ya da qondarma rejimin "milli təhlükəsizlik xidmətinə" təhvil veriləcəklər.

### İzaura Balasanyan dörd uşağı ilə birlikdə Azərbaycanın yuridiksiyası altında yaşamaq istədiyini demişdi...

Yeri gəlmişkən, belə hadisə bir neçə ay əvvəl də yaşanmışdı. Qarabağ ermənisi İzaura Balasanyan dörd uşağı ilə birlikdə Azərbaycanın yuridiksiyası altında yaşamaq istədiyini bildirərək RSK-nın nəzarət məntəqəsindən Şuşaya keçməyə çalışsa da, rus sülhməramlıları onu geri qaytararaq quldur rejimin təmsilçilərinə təhvil vermişdilər. İzaura ac olduğunu, işsiz qaldığını və Azərbaycan vətəndaşlığını qəbul edərək burada yaşamasını istəyirdi, amma o, tutularaq separatçıların ixtiyarına verildi.




Göründüyü kimi, artıq bu kimi hadisələr zaman-zaman artmağa başlayır və Azərbaycanın Qarabağın separatçılar olduqları ərazilərdə antiterror əməliyyatlarına başlaması necə deyərlər, zəruri tələbə çevrilməyə başlayır. Təbii ki, suveren Azərbaycan torpaqlarında heç bir qanunsuz, saxta və quldur rejimin qalması mümkün deyil, amma həmin prosesin də sürətlənməsi şərtə çevrilib. Xankəndidə və s. ərazilərdə separatçı rejimin əsarəti altında yaşamaq istəməyən ermənilərin də bu buxovdan azad edilmələri, Azərbaycan cəmiyyətinə reinteqrasiyaları qeyd edilən faktorlardandır.

### Antiterror əməliyyatları qapıdadır, qaz və elektrik qıtlığı isə separatçıları dalana söykəyib

Qarabağda yaşayan ermənilərin növbəti problemləri həm də ondan ibarətdir ki, artıq Ermənistandan Xankəndiyə çəkilmiş qaz xətti də demək olar ki, sıradan çıxıb. Belə ki, həmin kəmərin keçdiyi ərazilərin böyük hissəsi Ordumuz tərəfindən işğaldan azad edilib və bu xətlər də bilavasitə Azərbaycanın nəzarəti altındadırlar. İşğaldan azad edilmiş ərazilərimizdə infrastrukturların yaradılması prsoesi isə sürətlə həyata keçirilir və bu xüsusda yeni təhlükəsiz, eləcə də dünya standartlarına cavab verən qaz kəməri də çəkilməkdədir.

Qaz qıtlığı ilə yanaşı, elektrik enerjisi problemi ilə də qarşı-qarşıya qalan separatçılar isə müharibədən sonra təbii qaza olan tələbatlarını nəinki ödəyə bilmirlər, eyni zamanda bir sıra yaşayış mntəqələrində tamamilə qazsız və işıqsız qalırlar. Misal üçün, Qafan-Gorus yolu üzərindəki ərazilərimizdə Azərbaycan nəzarət-buraxılış məntəqəsi qurmamışdan öncə İrandan Xankəndinə qanunsuz yollarla maye qaz, yanacaq və s. enerji vasitələri daşınsa da, artıq xeyli müddətdir bu proses də dayanıb və bu faktın özü də belə nəticəyə gəlməyə zəmin yaradır ki, Bakı RSK-nın nəzarəti altında olan Qarabağ ərazilərində də öz diktəsini müvafiq siyasəti ilə reallaşdırır. Son vaxtlar separatçıların Qarabağın müxtəlif yerlərində əski parçalarını qaldırmaq cəhdlərinə Azərbaycan əsgərinin qəti və layiqli cavab verməsi isə bu parçaların endirilməsi ilə nəticəsini tapır. Proseslər isə əlbəttə ki, Bakının istədiyi kimi gedir və çox yəqin ki, yaxınlarda yeni və uğurlu hadisələrin şahidləri olacağıq.



***Rövşən RƏSULOV***

# Andrey Fyodorov: “Azərbaycan sübut etdi ki, vədinə əməl etməyi bacarır”

**Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov noyabrın ortalarında Rusiya nümayəndə heyətinin tərkibində Bakıda və Ağdamda olub. Səfərin məqsədi iki dövlətin yaratdığı yeni strukturun- Rusiya-Azərbaycan Ekspert Şurasının iclasında iştirak etmək olub. ”Moskva-Bakı”ya müsahibəsində Fyodorov regionda yaranmış vəziyyət və gedən proseslərlə bağlı fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

***- Rusiyanın Qarabağ nizamlanmasına yanaşmasını necə qiymətləndirirsiniz? Mən keçən ilin noyabrında Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatı və sonrakı razılaşmalarında qeyd olunan məqamları nəzərdə tuturam...***

- Rusiya olmasaydı, əslində, nizamlanma qeyri-mümkün olardı. Amma indi ən əsası bir il əvvəl üçtərəfli sazişin imzalanması deyil, indi ən vacib olan sazişlərin qeyd-şərtsiz icrasını təmin etməkdir. İcra üçbucaq daxilində aparılmalıdır. Rusiya isə yaxşı nəzarətçi rolunu saxlamalıdır- bütün razılaşmaların vaxtında və tam şəkildə yerinə yetirilməsinə aydın şəkildə nəzarət etməlidir.

Rusiya təbii ki, bir il ərzində Qarabağ üzrə əsas vasitəçi statusunu təsdiqləməyi bacardı. Ən əsası odur ki, biz məsuliyyət götürmüşük və nəzərdə tutulan addımları atırıq. Biz dürüst davranırıq- hər iki tərəfə qarşı. Bəlkə də bu, prosesdə gələcək irəliləyişlərin müşahidə olunacağına zəmanətdir.

Bizsiz proses irəli gedə bilməz. Təbii ki, əslində, biz bu üçbucaqdakı rolumuzu azaltmaq istərdik ki, vəziyyət ikitərəfli dialoqa gətirib çıxarsın. Amma hələlik bizim iştirakımız olmadan səmərəli ikitərəfli dialoq mümkün deyil.

Bu gün sülhə doğru irəliləyiş prosesi Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiya olunmaması səbəbindən əngəllənir. Bu problem həll olunarsa, proses davam edəcək. Nəqliyyat dəhlizləri ilə bağlı bənd üzrə razılaşmaların icrası vacibdir. Bu, ən vacib şeydir. Burada praktiki addımlar vacibdir. Praktik addımlar olmadan hər şey əvvəlki səviyyəsinə qayıda bilər. Razılaşmalar diplomatik danışıqlar səviyyəsində qalmamalıdır. Əməli addımlar atılmasa, biz Minsk Qrupunda olduğu kimi, daha 20 il otura bilərik.

Prosesi geri dönməz etmək vacibdir. Və yalnız böyük siyasi əhəmiyyət kəsb edən nəqliyyat-iqtisadi əlaqələrin blokunun açılması və sərhəddin delimitasiyası sülhə dönməz xarakter verə bilər. Bu məsələləri dəqiq müəyyən edən Soçi sazişləri imzalanıb. Amma bunu həyata keçirmək çoxlu məsələlərin həllini tələb edir. Bu xəritələr üzərində işdir, bu kosmik şəkillərdir, bu yerdə işləməkdir. Bu, hələ də sıfırda olan böyük bir prosedurdur. Həqiqətən iş delimitasiya məsələsinin həllinə gələn kimi prosesin irəli getdiyini söyləmək mümkün olacaq.

Axı, müharibədən əvvəl Qarabağ nizamlanması ilə bağlı birdən çox sənədimiz var idi, imzalanmışdı, sonra ondan heç nə çıxmadı. Bunun nəyə gətirib çıxardığını hamımız bilirik.

***- Bildiyiniz kimi, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatın imzalanmasının ildönümündə (noyabrın 9-da) yeni görüş nəzərdə tutulsa da, baş tutmadı. Kremlin o zaman qeyd etdiyi kimi, görüş üçün bütün tərəflərin razılığı lazımdır. Tərəflərdən biri bunun əleyhinə idi. Ekspert icması hesab edir ki, bu, İrəvan idi...***

- Bəli, aydındır. Məğlubiyyətin psixoloji sarsıntısı heç vaxt keçilmədi. Və bu, təsir etməyə davam edəcək.

***- İrəvan delimitasiya prosesinə başlamağa hazırdırmı? Azərbaycan mütləq hazırdır. Rusiya bu məsələdə kömək etməyə hazırdır. Prinsipcə, Ermənistanın da hazır olduqlarını deyirlər... Amma bilirik ki, bəzi məsələləri dartıb çıxarmaq meyili də var...***

- Biz öz mütəxəssislərimizlə, xəritələrimizlə kömək etməyə hazırıq. Amma siz ancaq üçbucaqda işləyə bilərsiniz... Və mən əmin deyiləm ki, Ermənistan daxili siyasi vəziyyətə görə tez nəsə edəcək.

***- Keçən həftə nəqliyyat və iqtisadi əlaqələrin bərpası üzrə işçi qrupun iclası keçirildi, ondan sonra Vladimir Putinin daha əvvəl elan etdiyi kimi, bu məsələ ilə bağlı qərar elan edilməli idi. Amma görüşdən sonra erməni tərəfi hələlik konsensusa gəlməyin mümkün olmadığını bəyan edib...***

- Yəqin ki, tez razılığa gəlmək mümkün deyil. Çünki nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması məsələsi birbaşa sərhədlərin delimitasiyası probleminə təsir edir. Odur ki, nəqliyyat dəhlizlərinin keçəcəyi zonalardan delimitasiyaya başlamaq təklif edilib.

***- Yəni, ilin sonuna qədər Soçidə razılaşdırılmış məqamlarda irəliləyiş olmayacağına inanırsınız?***

- Məncə yox. Çünki hələ Azərbaycan və Ermənistan liderləri arasında dekabrın 15-də Brüsseldə keçiriləcək görüş var. Və çox vacibdir ki, bu görüşdə hər iki tərəf Moskvanın vasitəçiliyi ilə əldə edilmiş razılaşmaların həyata keçirilməsi üçün öz məsuliyyətini bir daha açıq şəkildə təsdiq etsin.

***- Nikol Paşinyan hakimiyyətə gəldiyi andan onun Soros izi, Qərbə yaxınlaşmaq istəyi barədə çox eşitmişik. Lakin o, üçtərəfli bəyanatı imzaladıqdan sonra çoxları onun hakimiyyətdə qalmasının Rusiyaya da yaradığını söyləməyə başladı, çünki bəyanatı imzalayan və onun icrasını təmin edən məhz o idi...***

- Yaxşı, Paşinyan hara getdi? Bu vəziyyətdə onun başqa seçimi yox idi. Amma hazırda Ermənistanın baş nazirinin sabitliyinə əmin deyiləm. Təhlükənin olduğu yer budur. Ona görə deyirəm ki, başlamaq üçün son dərəcə vacib olan delimitasiya geri dönüş nöqtəsinə çevriləcək. Və nə qədər tez baş verərsə, biz hər hansı daxili siyasi problemlərdən bir o qədər az asılı olarıq.

***- Brüssel görüşündə artıq əldə olunmuş razılaşmalar üçün təhlükə varmı? Görüşdə Qərbdən, Ermənistandan hansısa təxribatlar, mövcud razılaşmalara yenidən baxılması cəhdləri ola bilərmi?***

- Qərb bizim Rusiya - Azərbaycan - Ermənistan üçbucağına özünü tamamilə nüfuzdan salmış Minsk Qrupu kimi başqa bir şeyi əlavə etməkdə maraqlıdır. Bu, Qərb ölkələrinə prosesə qismən də olsa təsir etmək imkanı verərdi. Qərb prosesdə çox da fəal iştirak etmək istəmir. Onlar üçün indi Ukrayna var və bu daha isti piroqdur. Lakin o, bura da müəyyən təsir göstərmək istəyir.

Düşünmürəm ki, sonda ictimai məkana sıçrayacaq hansısa təxribat olacaq, lakin Ermənistan və Azərbaycan Brüssel görüşündə Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş razılaşmalara sadiqliklərini bir daha təsdiqləsələr, bu, çox yaxşı olacaq. Onda bu, artıq ikiqat öhdəliklər olacaq- Rusiya və Avropa qarşısında. Öhdəlikləri yerinə yetirməyə hazırlığın təsdiqi nə qədər çox olarsa, bir o qədər yaxşıdır.

***- Bu arada, il ərzində biz dəfələrlə Qərbin Qarabağın statusu məsələsini təbliğ etmək cəhdlərinin şahidi olduq. Brüssel sammitində növbəti belə cəhd olacaqmı?***

- Brüsseldə belə bir məsələnin qoyulması cəhdi ola bilər. Ancaq belə bir məsələnin həlli regionda baş verən hər şeyi yenidən nəzərdən keçirmək demək olardı. Təbii ki, Azərbaycan prezidenti Brüsseldə belə bir cəhd müşahidə olunarsa, bunun qarşısını alacaq. O, prezidentin ardıcıl olaraq əməl etdiyi bu məsələdə tamamilə sərt mövqeyə malikdir. İstənilən halda maraqlı tərəflərin bu mövzunun təbliği Rusiyanın vasitəçiliyi ilə üçbucaqda əldə olunan razılaşmalara zidd olardı.

***- Ermənistanda millətçilər nə vaxtdır ki, Avropa İttifaqı, ABŞ bayraqları ilə mitinqlər keçirir, Rusiya əleyhinə bəyanatlar verirlər- bu, kimin təsiridir?***

- Bu, həm də Qərbdəki diaspora təsirinin nəticəsidir. Bundan əlavə, bu gün Ermənistanda cəmiyyət parçalanıb və birliyə və reallıqların tam şəkildə tanınmasına nail olmaq çox çətindir. Bu, bir ildən çox müddət ərzində özünü göstərəcək bir şeydir. Ancaq başa düşmək lazımdır ki, bu cür təzahürlər bütün ölkənin mövqeyi deyil, cəmiyyətin bir hissəsidir və o qədər də kiçik bir hissə deyil.

Bu gün mən Ermənistandakı vəziyyəti tranzit qeyri-sabitliyi kimi qələmə verərdim. Respublikada dəqiqlik yoxdur - kiminlə, harada və niyə. Və bu qeyri-müəyyənlik və qeyri-sabitlik, məncə, daha il yarım davam edəcək. Bundan sonra yəqin ki, bu və ya digər istiqamətdə yeni kursdan danışmaq mümkün olacaq. Bu vəziyyət kifayət qədər çətindir, çünki tranzit qeyri-sabitlik şəraitində heç bir ölkədə hakimiyyət inamlı addımlar ata bilməz.

***- Minsk qrupunun işinə gəlincə... Bayaq qeyd etdiyiniz kimi, münaqişənin həlli üzrə qrupun fəaliyyəti münaqişənin həllinə gətirib çıxarmadı. Amma bu il ərzində, üçtərəfli bəyanatın imzalanmasından sonra rəsmi Moskva vaxtaşırı vurğulayır ki, Minsk Qrupu ilə qarşılıqlı fəaliyyət vacibdir, lakin indi onun vəzifəsi praktiki məsələləri həll etməkdir - Azərbaycan və Ermənistanı yaxınlaşdırmaq, humanitar məsələlərin həyata keçirilməsində kömək etməkdir.***

- Tamamilə doğrudur. Çünki artıq siyasi məsələ həll olunub, münaqişə həll olunub. Minsk Qrupu həmsədrlərinin onilliklər ərzində edə bilmədiyi işlər artıq həyata keçirilib. İndi Minsk qrupunun rolu nizamlanma yollarının axtarışında deyil, çünki həll olunacaq heç nə qalmayıb. İndi Minsk qrupunun fəaliyyəti ilə bağlı sual ondan ibarətdir ki, o, Azərbaycan və Ermənistanı yaxınlaşdıra biləcək bəzi layihələr təklif edə bilər. Onun rolu regionu sabitlik zonasına çevirməkdir. Bu baxımdan Minsk Qrupunun həmsədrləri mövqelərin yaxınlaşması məqsədi ilə Azərbaycan və Ermənistan tərəflərinin iştirakı ilə hansısa iqtisadi, sosial yaxınlaşma layihələri, birgə konfranslar təklif edə bilərlər. Ermənistan və Azərbaycan diplomatik münasibətlərin bərpası məsələsi ilə üzləşəcək. Minsk Qrupu Azərbaycanla Ermənistan arasında yeni münasibətlərin qurulmasına kömək etməlidir. O, başqa heç nə edə bilməz. Sadəcə olaraq, bu gün heç bir siyasi xarakterli qərar qəbul etmək iqtidarında deyil. Üstəlik, delimitasiya prosesi baxımından heç bir qərar verə bilməz.

***Lakin eyni zamanda, İrəvan münaqişənin həll olunmadığını gündən-günə təkrarlayır, üçtərəfli formata görə Moskvaya təşəkkür edir, lakin bütün qalan məsələlərin ATƏT-in Minsk qrupu vasitəsilə həll edilməli olduğunu vurğulayır...***

Minsk qrupunun əsas vəzifəsi münaqişənin həlli idi. İndi isə bu mövzu bağlanıb. Budur, bu mövzu artıq mövcud deyil, yeni geosiyasi reallıq var, onu tanımaq və ondan çıxış etmək lazımdır.

***- Bu yaxınlarda Azərbaycana səfəriniz zamanı işğaldan azad edilmiş Ağdamda oldunuz. Təəssüratlarınız necədir?***

- Ağdamda heç nə qalmayıb, hər şey dağıdılıb. Dünyanın oxşar yerlərində olmuşam. Belə yerlərdə varmış kimi görünən, amma mövcud olmayan şəhəri görmək insanı heyrətə gətirir. Bu şəhərdən heç nə qalmayıb. Bu, həqiqətən təsir edicidir.

Onun bərpası ilə bağlı planlar da təsir edicidir. Şəhərlərin bərpası üçün tamamilə aydın planlar var. Bizə yerindəcə Ağdamın baş planını göstərdilər ki, belə olacaq, bu yerdə filan olacaq. Filan şirkətlər cəlb olunacaq. Söhbət ərazilərin dirçəldilməsindən gedir. Bunun bir ildən çox vaxt aparacağı aydındır. Amma Azərbaycan hər şeyi tez bir zamanda yenidən qurmağa, bərpa etməyə çalışır. Başqa cür ola da bilməzdi. Azərbaycan sübut etdi ki, vədinə əməl etməyi bacarır.

***Tərcümə - Elçin Bayramlı***

# Bu futbolçunun qiyməti 150 milyon avrodur!



**Beynəlxalq İdman Araşdırmaları Mərkəzi (CIES) top 5 Avropa çempionatında 23 yaşadək ən bahalı futbolçuların siyahısını dərc edib. Qol.az xəbər verir ki, siyahıya 150 milyon avro dəyərində qiymətləndirilən Dortmund "Borussiya"sının hücumçusu Erlinq Haaland, eyni dəyərə malik "Real"dan Vinisius Junior və "Mançester Siti"dən Filip Foden başçılıq edir. Sonrakı yerdə "Mançester Yunayted"in iki futbolçusu Meyson Qrinvud və Ceydon Sanço gəlir - müvafiq olaraq 140 milyon avro və 130 milyon avro.**

Siyahıdakı əsas sensasiyalardan biri PSJ-nin hücumçusu Kilian Mbappenin (80 milyon avro) təkcə yuxarıda adı çəkilən oyunçulardan deyil, həm də Ferran Torresin ("Mançester Siti", 120 milyon avro) və Joao Feliksdən ("Atletiko", 100 milyon) geri qalmasıdır. Beləliklə, fransalı hücumçu Mussa Diabi ("Bayer" Leverkuzen), Yeremi Pino ("Vilyarreal") ilə birgə 8-10-cu pillələri bölüşdürür.

# Soyuq günlərin isti içkiləri

**Soyuq havalı günlərdə isti içkilər qəbul etmək çox faydalıdır. Yeməkdən bir müddət sonra qəbul edilən isti içki, o cümlədən çay infarkt, beyin-damar xəstəlikləri riskini azaldır. Xüsusən yaşıl çayda olan antioksidantlar yaddaşsızlığa səbəb olan fermentin aktivləşməsinin qarşısını alır. Lakin qeyd etmək lazımdır ki, yaşıl çayın tərkibində kofein mövcud olduğundan həkimlər gün ərzində iki fincandan artıq içməyi məsləhət görmürlər.**

Həkim-diyetoloq Ləman Süleymanova bu barədə açıqlamasında bildirib ki, rasionumuzda xüsusi yer tutan qəhvə antioksidantlarla zəngin olduğu üçün xərçəng riskini azaldır: "Araşdırmalar göstərir ki, qəhvə həm də şəkər xəstəliyinin yaranmasının qarşısını alır. Ona görə də gün ərzində iki-üç fincan qəhvə içmək məsləhətdir. Lakin unutmaq olmaz ki, qəhvənin çox qəbul edilməsi yuxu probleminin yaranmasına səbəb olur. Həmçinin qəhvənin tərkibindəki kofestol maddəsi qanda xolesterini yüksəldir".



Mütəxəssislər bildirirlər ki, qara çay mövsümi soyuqdəymələr zamanı çox faydalıdır. Tərkibi B2, C və E vitaminləri ilə zəngin olan çay qan dövranını yaxşılaşdırır. Bu ətirli içki ürək-damar xəstəliklərinə profilaktik təsir göstərir. Həddindən çox çay içmək yuxusuzluğa, ürək döyüntülərinin artmasına və təzyiqin yüksəlməsinə səbəb ola bilər.

Həkim-diyetoloq bildirib: "Bol vitamin və minerallarla zəngin olan süd isə həm də zəngin kalsium mənbəyi hesab olunur. Süd yaddaşı gücləndirməklə qanda xolesterinin səviyyəsini azaldır, dişlərin erkən çürüməsinin qarşısını alır. Həmçinin bu içki dərini cavan saxlayır. Araşdırmalar göstərir ki, süd həm də mədə-bağırsaq xəstəliklərinin dərmanıdır. Gün ərzində bir neçə dəfə süd qəbul etmək olar. Sinir toxumalarının inkişafında süd qəbul edilməsinin xüsusi rolu var".

Beləliklə, isti içkilər soyuq aylarda həm canı isidir, həm də sağlamlığa çox müsbət təsir göstərir.

# Evlərdən silsilə oğurluqlar edənlər yaxalanıb



**Oktyabrın 2-dən 8-dək olan müddətdə rayon ərazisindəki bir evdən 8500 manat dəyərində spirtli içki, qızıl-zinət, geyim və məişət əşyaları, bir evdən isə 1500 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən əvvəllər məhkum olunmuşlar - Astara rayon sakini Q.Məhərrəmov və Biləsuvar rayon sakini Ş.Vahablı Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Q.Məhərrəmovun barəsində aparılmış əməliyyat tədbirləri ilə onun iki evdən 2500 manat məbləğində pul və 3550 manat dəyərində qızıl-zinət əşyaları oğurlaması da müəyyənləşib. Ş.Vahablının barəsində aparılmış əməliyyat tədbirləri ilə onun Göygöl rayon sakini, əvvəllər məhkum olunmuş T.Həsənovla birgə rayon ərazisindəki üç evdən ümumilikdə 1100 manat məbləğində pul və 8700 manat dəyərində qızıl-zinət əşyaları oğurlaması da məlum olub. T.Həsənov da əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.**

**Faktla bağlı Sabunçu Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.**

# Hamilə bacısının başını kəsərək selfi çəkdirdi

Hindistanda 17-18 yaşlarında olduğu bildirilən gənc, anasının köməyi ilə hamilə bacısının başını kəsərək selfi çəkdirib. SİA xarici mətbuata istinadən xəbər verir ki, iddia edilib ki, gəncin böyük bacısının başının kəsməsinə səbəb onun bəyənmədikləri şəxslə ailə həyatı qurması olub. Bu hücumun artından həm cinayətkar, həm də anası polis tərəfindən həbs edilib.



*Rüqəyya Orucova*

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**